YENİ MÜSAVAT
N 204 (7093) 29 sentyabr 2018




## Prezident İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının şərəfinə verilən rəsmi qəbulda iştirak edib

**Sentyabrın 28-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

"Report" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.

Dövlət başçısının Tacikistan Respublikasına səfəri sentyabrın 28-də başa çatıb.



## Gələn ildən Azərbaycanda müəllimlərin sertifikatlaşdırılmasına başlanacaq

**Azərbaycanda müəllimlərin sertifikatlaşdırılması sisteminin tətbiqinə 2019-cu ildən başlamaq planlaşdırılır. Trend-in məlumatına görə, bunu təhsil naziri Ceyhun Bayramov deyib.**

C.Bayramovun sözlərinə görə, "Təhsil haqqında" qanuna edilən dəyişikliyə əsasən, müəllimlərin sertifikatlaşdırılması prosesi həyata keçiriləcək.

Nazir hazırda işçi qrupun sertifikatlaşdırmanın qaydaları, onun keçirilmə ardıcıllığı üzərində iş apardığını da söyləyib.

C.Bayramov hesab edir ki, sertifikatlaşdırma birdəfəlik proses olmamalıdır.

Onun sözlərinə görə, hər bir müəllimin 5 ildən bir həmin sertifikatlaşdırmadan keçməsi nəzərdə tutulur:

"Sertifikatlaşdırma nəticəsində biz daha dəqiq ölçmələr və daha detallı məlumatlar əldə edə biləcəyik. Həmin prosesin davamlı olması ona işarə edir ki, hər bir müəllimin öz üzərində davamlı işləməsi, nəticəsini yaxşılaşdırması üçün ciddi bir stimul olacaq".

## Qobuda maşın 5 yaşlı uşağı vurub öldürdü

**Qobuda maşın 5 yaşlı uşağı vurub öldürüb. DİN-dən Trend-ə verilən məlumata görə, sentyabrın 27-də saat 17 radələrində Abşeron rayonunun Qobu qəsəbəsi ərazisində Kürdəmir rayon sakini Zahir Məlikov idarə etdiyi "VAZ-21013" markalı avtomobillə yolu keçən qəsəbə sakini - 5 yaşlı Nuran Güləliyevanı vurub. Nəticədə xəstəxanaya yerləşdirilmiş uşaq orada ölüb.**

Abşeron RPİ tərəfindən araşdırma aparılır.

**Elan**

**"İstedadlı Əlillər" İctimai Birliyinin nizamnaməsi, şəhadətnaməsi və dövlət reystrindən çıxarışı naməlum şəraitdə itmişdir. Sənədləri tapan şəxslərdən xahiş olunur ki, aşağıdakı nömrəylə əlaqə saxlasın. (055)-760-28-28**

# Uşaqlar üçün hazırlanan ensiklopediyada materiklərin sayı 6 deyil, 7 göstərilib - elmi "yenilik"

**Azərbaycanda uşaqlar üçün çap edilən ensiklopediyada materiklərin sayı 6 deyil, 7 göstərilib.**






**Materik**

Materik - böyük quru sahəsidir. Bizim planetdə cəmi yeddi materik və ya kontinent var: **Afrika, Antarktida, Avropa, Asiya, Avstraliya, Cənubi Amerika, Şimali Amerika.**
Materiklər yer qabığının səthində yerləşirlər. Yer qabığı bərk dağ süxurlarından ibarətdir, amma onun altında ərimiş qaynar kütlə - maqma vardır. Maqmanın təsiri altında yer qabığı

Trend-in məlumatına görə, hazırda da kitab dükanlarında satılan, 400 səhifəlik "Bunları bilmək istəyirəm!" adlı illüstrasiyalı intellektual ensiklopediya 2013-cü ildə "Turan Evi" nəşriyyatı tərəfindən hazırlanıb. Ensiklopediyanın arxa üzündə isə "Şərq-qərb" nəşriyyatının adı qeyd edilib.

Adıçəkilən ensiklopediyada materiklər haqqında belə məlumat verilib: "Materik böyük quru sahədir. Bizim planetdə cəmi yeddi materik və ya kontinent var: Afrika, Antarktida, Avropa, Asiya, Avstraliya, Cənubi Amerika, Şimali Amerika".

"Şərq-qərb" nəşriyyatından Trend-ə bildirilib ki, onlar bu kitabda yazılan məlumatlara görə məsuliyyət daşımırlar. Çünki onlar yalnız "Turan evi" tərəfindən hazırlanmış vəsaiti nəşriyyatın mətbəəsində nəşr ediblər.

Məsələ ilə bağlı "Turan evi" nəşriyyatı ilə əlaqə saxlamaq istəsək də, cəhdlərimiz uğursuz olub.

Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstututunun direktor müavini Məhərrəm Həsənov Trend-ə bildirib ki, kitabda materiklərlə bağlı verilən məlumat səhvdir və bu məlumatlar uşaqları çaşdırır:

"Planetdə 7 deyil, 6 materik var və son illər ərzində də dünya elmi tərəfindən yeni materik kəşf edilməyib. Kitabda materik və qitələr bir-biri ilə qarışdırılıb. Hazırda planetdə Afrika, Antarktida, Avstraliya, Cənubi Amerika, Şimali Amerika və Avrasiya materikləri var. Ensiklopediyada materik kimi qeyd edilən Avropa və Asiya isə qitədir. Ümumilikdə Avropa, Asiya, Amerika, Avstraliya, Afrika və Antarktida planetdəki qitələrin adlarıdır. Yaxşı olardı ki, nəşriyyatlar coğrafi məlumatların səhv getməməsi üçün bizimlə məsləhətləşsinlər. Biz onlara yardım etməyə hazırıq. Bu əməkdaşlıq həm də onların xeyrinə olar, çünki belə olduqda onların da vəsaitlərində səhv məlumatlar getməz".

## DGK sədri Cocuq Mərcanlı kəndində vətəndaşları qəbul etdi

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər.**



Sentyabrın 28-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində vətəndaşları qəbul edib.

Trend-in məlumatına görə, Dövlət Gömrük Komitəsinin sədri qəbuldan öncə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstəsi qoyub.

Eyni zamanda, işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində dövlət başçısının tapşırıqlarına uyğun olaraq görülmüş geniş quruculuq işləri, o cümlədən müasir infrastruktur ilə tanışlıq olub.

Səfər Mehdiyev kənd məktəbində müəllim və şagirdlərlə görüşüb, məktəbə Dövlət Gömrük Komitəsi adından kompüter və kondisioner hədiyyə edib.

Həmçinin Komitə sədri yerli sakinlərlə görüşüb, onların şəraiti və qayğıları ilə maraqlanıb. Qeyd edilib ki, Cocuq Mərcanlı kəndində görülən işlər və yaradılan şərait ölkəmizdə hər bir sahədə gedən dinamik inkişafın bariz nümunəsidir.

Sakinlər kənd azad edildikdən sonra Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Cocuq Mərcanlı kəndinin yenidən qurulduğunu, insanların təhlükəsiz yaşayışının təmin edildiyini bildirib, ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Səfər Mehdiyev Cocuq Mərcanlı kəndində yeni tikilmiş tibb məntəqəsi və məscid binası ilə də tanış olub.

Daha sonra vətəndaşların qəbulu keçirilib.

Qəbulda bölgədə yerləşən - Cocuq Mərcanlı kəndi (Cəbrayıl), Füzuli, Zəngilan, Qubadlı və Xocavənd rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı DGK sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.



## Zakir Qaralov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi

**Prezident İlham Əliyevin Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında sərəncamında Baş prokuror Zakir Qaralovun da adı var.**

"Report" xəbər verir ki, Prezidentin sərəncamına əsasən, Baş prokuror Zakir Qaralov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb.

Qeyd edək ki, sərəncamla həmçinin dörd nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə", yeddi nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 7 nəfər "Tərəqqi", 24 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif olunub.

Xatırladaq ki, oktyabrın 1-i Azərbaycanda prokurorluq işçilərinin peşə bayramıdır.

## MSN-in Şirvandakı zavodunda baş verən yanğınla bağlı cinayət işi açılıb

**Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərində yerləşən "Araz" zavodunda yanğın baş verməsi barədə daxil olmuş məlumat əsasında dərhal hadisə yerinə Müdafiə Sənayesi Nazirliyinin, şəhər Polis Şöbəsinin və şəhər prokurorluğunun əməkdaşları, həmçinin nazirliyin maşın, mexanizm və canlı qüvvəsi cəlb olunub, zəruri və təxirəsalınmaz birgə tədbirlərin görülməsinə başlanılaraq yanğının genişlənməsinin qarşısı alınıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, ilkin araşdırmalarla müəyyən edilib ki, zavodun istehsalat sahəsinə aid konteyner tipli sexində detalların sıxılması üçün nəzərdə tutulmuş dəzgahın quraşdırılması zamanı yanğın baş verib, nəticədə zavodun işçiləri Xəlilov Vaqif Valeh oğlu və İsmayılov Sabit Əlisurət oğlu müxtəlif dərəcəli yanıq xəsarətləri alaraq Şirvan Mərkəzi Şəhər Xəstəxanasına yerləşdiriliblər.

Fakta görə şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 223.1-ci (Partlayış təhlükəli obyektlərdə və ya partlayış təhlükəli sexlərdə təhlükəsizlik qaydalarının pozulması, ehtiyyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, hadisənin baş vermə səbəblərinin və digər halların müəyyənləşdirilməsi məqsədi ilə müvafiq ekspertizalar təyin edilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 204 (7093) 29 sentyabr 2018

# Hərbi ekspert və partiya liderində həmsədrlərdən imtina çağırışı

## Etibar Məmmədov: "Minsk Qrupundan bundan artıq bir şey gözləməyə dəyməz"

**ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-York görüşünə dair bəyanatla çıxış ediblər. Bəyanatda həmsədrlərin görüş zamanı tərəflərdən narahatçılıq doğuran bəyanatlar və insidentlərlə bağlı izahat istədikləri bildirilir.**

Qeyd olunub ki, həmsədrlər insan ölümləri hallarının davam etməsindən dərin təəssüf hissi keçirdiklərini vurğulayıblar. Onlar nazirləri gərginləşmənin təhlükəli olması barədə xəbərdar ediblər, tərəfləri pozitiv mühitin formalaşmasında konstruktiv iştiraka və aqressiv ritorikadan çəkinməyə çağırıblar.

Bəyanatda Qarabağ münaqişəsinin həllini zəruriliyinə toxunan həmsədrlər, bunun üçün "hər iki tərəfin" güzəştlərə hazır olmasının vacib olduğunu qeyd edib.Vasitəçilər qeyd ediblər ki, hərtərəfli nizamlanma bütün tərəflərdən güzəştlər tələb edəcək.



Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında Minsk Qrupunun həmsədlərinə kəskin etiraz edib: "Həmsədrlər izahatı tərəflərin hər ikisindən yox, Ermənistandan tələb etməlidirlər. Vəziyyəti gərginləşdirən, hər gün təmas xəttində atəşkəsi pozan Ermənistandır. Həmsədrlər sanki kordurlar bunu görmürlər. Görürlərsə nədən hər şeyi öz adı ilə çağırmırlar. Azərbaycanın izahat verməli hansısa yanlış addımı, hərəkəti yoxdur. İkincisi də artıq ATƏT-in Minsk Qrupu həmsdərləri Azərbaycan cəmiyyətinin etimadını tamamilə itiriblər, onlara heç bir inam qalmayıb. Onların heç bir haqqı yoxdur Azərbaycanla Ermənistanı eyni tərəziyə qoyub bizdən izahat tələb etməyə. İkincisi, həmsədrlər bizdən güzəşt gözləməklə də böyük səhvə yol verirlər. Azərbaycanın sülh danışıqlarına razı olması, torpaqlarının azadlığı üçün hələlik hərbi əməliyyatlara başlamaması ən böyük güzəştdir. Torpaqları işğal altında olan ölkədən güzəştə getmək gözləməlidirlər. Həmsədrlər işğalçı tərəfi güzəştə getməyə məcbur etməlidirlər. Ümumiyyətlə, mən hesab edirəm ki, artıq yetər, Azərbaycan Minsk qrupunun vasitəçiliyindən imtina etməlidir".

Konfliktoloq Əvəz Həsənov isə bildirdi ki, Ermənistanın baş naziri BMT Baş Assambleyasının iclasında çıxışı zamanı etdiyi bütün hədə-qorxular ilə yanaşı öz çıxışını "hər iki tərəf kompromisə getməklə bu münaqişəni həll etməlidir" fikiri ilə yekunlaşdırdı. Bunun ardınca Minsk qrupu həmsədrləri bəyanat verdi. Bu təsadüfi sayılmamalıdır: "İndiki halda Paşinyandan tələb olunan danışıqlar prosesində iştirakını bərpa etməkdir. O özü qəsdən danışıqlar prosesini pozub ki, heç bir məsuliyyət daşımaqdan yaxa qurtarsın. Ancaq görünür ki, onun bu şıltaqlığı uzun çəkməyəcək. Qərb danışıqlar prosesində fasilə yarandıqca Rusiyanın münaqişə tərəflərinə müdaxiləsinin artacağından ehtiyat edir, ona görə də danışıqların bərpasına çox maraqlıdır. Danışıqlardan qaçmaq anti-qərb siyasət kimi də başa düşülür".

Moderator.az-a açıqlama verən AMİP lideri Etibar Məmmədov isə Minsk qrupunda təmsil olunan dövlətlərin belə bir tələblə çıxış etməsindən təəccüblənmədiyini vurğulayıb: "Minsk qrupunun tərkibinə baxsanız görərsiniz ki, burada təmsil olunan dövlətlər ermənilərin tarixi müttəfiqləridirlər. Rusiya və Fransa vaxtiylə öhdəlik götürüb ki, erməni dövləti yaradılıb onu müdafiə edəcəyik. Bu iki dövlət tarixən ermənilərin müttəfiqi olub. Son dövrlər isə erməni lobbisinin təsiri altında Amerika da Ermənistanın müttəfiqi kimi çıxış edir. Ona görə də Minsk qrupundan bundan artıq bir şey gözləməyə dəyməz. Bu, artıq vaxt itkisindən başqa bir şey deyil".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Trampın kürd jurnalistə müraciəti aranı qatdı

## Əli Əliyev: "ABŞ prezidenti qəsdən belə davrandı"
## Elçin Mirzəbəyli: "Kürdlərə hörmətlə yanaşdığını ifadə etmək istəyib"

**Amerika prezidenti Donald Tramp növbəti dəfə gülünc vəziyyətlə üzləşib. O, BMT-nin Baş Məclisi ilə bağlı mətbuat konfransı keçirərkən Şimali İraq Kürd Muxtariyyətinin lideri Məsud Bərzaniyə məxsus K24 televiziyasının bir müxbiri söz almaq istəyi ilə əlini qaldırıb. Tramp müxbiri göstərərək, "Bəli, buyurun, hörmətli Kürd" şəklində xitab edib.**



Bundan əlavə, Səudiyyə Ərəbistanını hər fürsətdə tərifləyən ABŞ prezidenti bu dəfə kral Salmanın adını qarışdırıb. O, Fələstin və İsrail arasındakı gərginliyə münasibət bildirərkən, Səudiyyə Ərəbistanının kralı Salman üçün "Ecazkar adamdır" demək istəyib. Eyni zamanda, Tramp kral Salman yerinə kral Süleyman deyib.

Ağ Ev sahibi prezident seçildiyi iki ilə yaxın müddət ərzində tez-tez bu cür davranışları ilə gündəmə gəlir. Xüsusilə, onun jurnalistlərlə davranışı hər zaman tənqid obyekti olur. Sanki Tramp bunları biləəkdən edir. Onun qeyri-adi hərəkətləri, siyasəti bütün diqqətləri son iki ildə üzərinə cəmləyib.

Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, Tramp ekstravaqant şəxsdir: "Onu bəsit, səthi, təsadüfi şəxs kimi qiymətləndirmək yanlışdır. Əvvələ onu deyim ki, azad bazarda rəqabət şəraitində milyard toplamaq bacarıq, işgüzarlıq və ağıl tələb edir. Tramp bunu bacarıb. ABŞ cəmiyyətində yer tutmağı bacarmış, soyadını brendə çevirməyə nail olmuş birisinin qiymətini düzgün vermək lazımdır. ABŞ cəmiyyətinin bütün seqmentləri elə təşəkkül tapıb ki, orada təsadüflər olmur, olduqda isə tez sıradan çıxır. Məndən bu cəmiyyətin xarakteristikasını bir sözlə ifadə etməyi soruşsanız, tərəddüd etmədən rəqabət ifadəsini işlədərəm. Rəqabət təbiət və cəmiyyətlərin əsas hərəkətverici qüvvəsidir. Burada yalnız güc, zəhmət, inad, ağıl keçərlidir. Belə şəraitdə təsadüflər istisnadır. Tramp kifayət qədər ağıllı, güclü şəxsiyyətdir. O standart düşünmür, rasionaldır, hədəfi amerikalıların rifahı və qüdrətidir. Fikirlərini diplomatik bəzəyə bükmür, kəsə və qəbul olunmuş normalardan kənar danışır. Həmin jurnalistə müraciətini mətbuat geniş şərh etdi. Amma düşünürəm ki, Tramp bilə-bilə belə müraciət etdi. Trampın prezidentliyinin ilk iki ilində dünyanın iqtisadi, ticari, siyasi, diplomatik, ekoloji, regional, hərbi və s. sahələrdə mənzərəsi əsaslı şəkildə dəyişib. Bütün addımlarında Tramp ABŞ maraqlarını qabardır. İran, Rusiya, Çin, Meksika, AB, Şimali Koreya, Kanada ilə tamamilə fərqli siyasətə üstünlük verir. Dünya ticarət təşkilatının, BMT, NATO ilə əlaqədar maraqlı mövqe, Paris ekologiya razılaşmasına, İranla 6 dövlətin imzaladığı nüvə sazişindən imtina, bəyənməsək də İsrail paytaxtı barədə qərar Trampın qlobal siyasətdə səhv yaxud düz olmasından asılı olmayaraq, miqyaslı düşüncəsindən xəbər verir. Bir də inanmıram ki, bütün bu işlər onun təkbaşına düşündükləridir. Sistem hazırlayır, o təqdim edir. Yaxın vaxtlarda aralıq seçkilərdə Trampın perspektivləri barədə danışmaq mümkün olacaq. Əgər bu seçkilərdə respublikaçılar üstün olsalar, Trampın amerikalı seçicilər arasındakı nüfuzunun yüksək olduğu, növbəti dəfə seçilmək şansının olması üzə çıxacaq. Ola bilər ki, mən də subyektiv olaraq bəzi addım və davranışlarını qəbul etmirəm. Amma qalibləri mühakimə etməzlər. Tramp qalibdir. Amerikalıların əksəriyyəti onu bəyənir. Onun tənqidi üçün haqq o vaxt olar ki, etdiklərinə nail ola biləк. Mənim belə nailiyyətlərim yoxdur".

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli fərqli düşünür: "Əslində Trampın bu sözləri K24 kanalının müxbirindən daha çox sahibinə - Məsud Bərzaniyə ünvanlanıb. ABŞ prezidenti bununla, xüsusilə də "hörmətli" sözü ilə ölkəsinin və özünün kürdlərə hörmətlə yanaşdığını ifadə etmək istəyib. Amma peşəsindən asılı olmayaraq istənilən şəxsə onun etnik mənsubiyyəti ilə müraciət etmək ən azı etik deyil. Bu etnik ayrı-seçkilikdir və heç bir halda xoş təsir bağışlamır. Konkret bu məsələnin jurnalistlərə olan qıcıqla heç bir əlaqəsi yoxdur. Tramp sadəcə Bərzaniyə və ABŞ-ın layihələrində iştirak edən qruplara öz münasibətini nümayiş etdirmək istəyib".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# İstanbulda PKK-nın 10 üzvü həbs olundu

**Türkiyənin təhlükəsizlik qüvvələri İstanbul şəhərində PKK terror təşkilatına qarşı geniş antiterror əməliyyatı keçirib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, fərqli ünvanlarda keçirilən əməliyyat zamanı PKK-nın 10 üzvü həbs olunub. Onlar gəncləri zorla PKK-nın küçə tədbirlərinə cəlb etməkdə, maşın yandırmaqda və digər cinayətlərdə təqsirli bilinirlər.

# Bu gün Qarabağ mitinqidir

## Milli Məclis üzvləri olan partiya sədrlərindən və YAP-ın məşhur deputatından xalqa "mitinqə gəlin" çağırışı: "Hamı mitinqə qoşulmalıdır"



**Bu gün saat 15.00-dan, 17.00-dək Yasamal rayonu ərazisində "İnşaatçılar" metrostansiyasının yaxınlığındakı "Məhsul" stadionunda Qarabağ mitinqi keçiriləcək. Bakı Şəhər İcra Hakimiyyətinin razılığı ilə keçiriləcək mitinqin təşkilatçısı ictimai, siyasi xadimlərin yaratdığı Qarabağ Komitəsidir. Mitinqdə Qarabağa azadlıq şüarları səslənəcək.**

Mitinqin təşkilat komitəsinin üzvü, AG Partiyanın sədri Tural Abbaslı sentyabrın 28-də "Yeni Müsavat"a bildirib ki, hazırlıqları demək olar yekunlaşıb: "Bütün təşkilati-texniki məsələlər yekunlaşıb. Təbliğat işi də yüksək səviyyədə gedir. İctimaiyyətin dəstəyi də kifayət qədər yüksəkdir. Ümid edirəm ki, bu mitinqimiz Qarabağın adına layiq şəkildə ən yüksək səviyyədə keçəcək və dünya bir daha Azərbaycan xalqının Qarabağ iradəsinin şahidi olacaq".

Sentyabrın 28-də mitinq komitəsinin üzvləri Akif Nağı və Tural Abbaslı BŞBPİ-yə dəvət ediliblər. Günün birinci yarısı onlar BŞBPİ-də olublar. Tural Abbaslının "Yeni Müsavat"a verdiyi xəbərə görə, onları BŞBPİ-nin rəis müavini, general Səhlab Bağırov, Bakı şəhər Prokurorluğundan nümayəndə və İctimai təhlükəsizlik şöbəsinin rəisi qəbul edib. Görüşdə mitinqlə bağlı prosedur xəbərdarlıq edilib ki, şüarlardan kənara çıxılmasın, qanuna zidd hərəkətlərə yol verilməsin: "Biz də öz fikirlərimizi dedik və bir neçə dəqiqəlik görüş oldu".

BŞBPİ-nin rəis müavini Səhlab Bağırov isə Report-a açıqlamasında bildirib ki, mitinqin təşkilatçıları Bakı şəhər Baş Polis İdarəsinə dəvət olunub və onlara xəbərdarlıq edilib. General qeyd edib ki, sentyabrın 29-da keçirilməsi nəzərdə tutulan mitinqə Bakı şəhər İcra Hakimiyyəti tərəfindən icazə verilib: "Təşkilatçılar bildirdilər ki, mitinqdə ancaq Qarabağa dair şüarlar səsləndiriləcəklər. Bizim vəzifəmiz təhlükəsizliyi təmin etməkdir. Mitinq iştirakçıları da öz növbəsində qanundan kənar hərəkətlərə yol verməməlidir. Bildirmək istəyirəm ki, Bakı şəhər İcra Hakimiyyətinə ünvanlanan müraciətdə qeyd olunan şüarlardan fərqli şüarların səslənməsinə, həmçinin iğtişaşa və qarşıdurmaya səbəb ola biləcək hər hansı addımın atılmasına imkan verilməyəcək. Əks təqdirdə, mitinqin təşkilatçıları və günahkarlar qanun çərçivəsində cəzalandırılacaqlar".

Qarabağ mitinqinə Qarabağ Komitəsində təmsil olunmayan siyasətçilərdən, deputatlardan da dəstək verilir.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, millət vəkili Qüdrət Həsənquliyev də həm mitinq təşəbbüsünə, həm də mitinqə icazə verilməsinə müsbət yanaşdığını bildirib: "Hökumət də, cəmiyyətin fəal siyasi hissəsi də qəti qərarların qəbul olunmasının vaxtının çatdığının fərqindədirlər. Biz dünya birliyinə, o cümlədən Ermənistana göstərməliyik ki, artıq səbrimiz tükənib və daha 25 il də mənasız danışıqlara vaxt sərf etməyəcəyik. Bunu etməyimiz üçün isə xalq mitinqə gəlməlidir. Əgər xalqımız kənar seyrçi mövqe tutsa, bu mitinqin ziyanı xeyrindən daha çox olacaq".

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, hakim Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov da Qarabağ mitinqini dəstəkləyən açıqlama verib. Modern.az-a açıqlamasında YAP deputatı bəyan edib ki, mitinq Qarabağla bağlı olduğundan orada hər bir kəs iştirak etməlidir: "Bu mitinq Azərbaycan millətinin mitinqidir. Burada iqtidar, müxalifət adı olmamalıdır. Qarabağ problemi bütün Azərbaycanın dərdidir. Burada müxalifət və iqtidar yoxdur. Ona görə də hesab edirəm ki, mitinqə hamı qoşulmalıdır. Amma mitinq də mitinq səviyyəsində olmalıdır. Mitinq Bakı şəhər İcra Hakimiyyətinin icazəsinə hörmət əlaməti olaraq qaydalara uyğun keçirilməlidir".

E.İbrahimov deyib ki, sentyabrın 29-da keçiriləcək Qarabağ mitinqi elə bir aksiya olmalıdır ki, onu ümumxalq mitinqi adlandıra bilək: "Çünki biz Qarabağla bağlı mitinq keçiririk və düşmən də bizə kənardan baxıb gülməsin ki, bu nə mitinqi filan...".

Mitinq komitəsinin üzvü Tural Abbaslı isə YAP-çı deputat Eldar İbrahimovun ortaya qoyduğu vətəndaşlıq mövqeyini alqışladığını bildirib: "Eldar İbrahimov da haqlı deyir ki, Qarabağ ümummilli bir məsələdir və bu məsələdə iqtidar-müxalifət olmamalıdır. Bu mitinqdə siyasi kimliyindən asılı olmayaraq hər kəs iştirak etməlidir. Heç kim unutmamalıdır ki, bu mitinqə düşmən ölkədə də kifayət qədər diqqət ayrılıb və onlar da bu mitinqdən bəzi nəticələr çıxaracaq. Ən azından Ermənistanın baş naziri Paşinyanın son zamanlar sərsəmləmələrinin cavabı bu mitinqdə verilməlidir. O da anlamalıdır ki, Azərbaycan xalqı öz torpaqlarını silah gücünə azad etməyə və bu yolda qan tökməyə, hətta qanını axıtmağa hazırdır".

Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli də Qarabağ mitinqinə siyasi mövqeyindən asılı olmayaraq hər kəsin qatılmasının vacibliyini bildirdi: "Qarabağla bağlı mitinq həm daxildə, ölkə xaricində yaxşı təşkil olunsa dünyaya, işğalçı Ermənistana bir mesaj olar. Azərbaycan xalqının Qarabağ münaqişəsinin bu qədər uzanmasına etirazı, öz torpaqlarını işğaldan azad eləmək iradəsinin ifadəsi, mövcud status-kvo ilə barışmadığı və sair məsələlər bu mitinqdə öz əksini tapmalıdır. Bunun üçün də mitinqə hər kəs qoşulmalıdır. Bu mitinqin çox böyük bir mitinq olması hakimiyyətin də Qarabağ danışıqlarında xeyrinə çevrilən faktor olar. Dünyaya nümayiş edilər ki, Azərbaycan xalqı Qarabağın işğalda qalması ilə heç zaman barışmayacaq. Qarabağ mitinqi çox ciddi təşkil olunmalıdır. Yəni mitinq "quş qoymaq" xatirinə keçirilən mitinq olmalı deyil. Qarabağ mitinqinin yaxşı təşkil olunmaması işə xeyir vermək əvəzinə, zərər vura bilər. Bəzi partiyalar, bəzi partiyaların rəhbərləri qorxurlar ki, bu mitinq onların arzuladığı səviyyədə alınmaz, ona görə də partiya şəklində iştirakdan çəkinirlər, məsuliyyəti bölmək istəmirlər. Amma hər kəs dərk eləməlidir ki, təşkilatçının kimliyindən asılı olmayaraq Qarabağ mitinqinə qatılmaq milli maraqlarımız baxımından lazımdır. Qarabağ mitinqi iqtidar-müxalifət mübarizəsinin mövzusu deyil. Qarabağ mitinqində siyasi mövqeyindən asılı olmayaraq hər kəs iştirak etməlidir. Hamını Qarabağ mitinqində iştiraka çağırıram. Ən azından düşmən bizim Qarabağ məsələsində bir yerdə olduğumuzu görməlidir. Mitinqin qətnaməsi də çox ciddi hazırlanmalıdır".

Müsavat Partiyasının mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlı isə bildirib ki, Müsavat Partiyasının Divan toplantısında mitinqdə iştirak məsələsində partiya üzvlərinə sərbəstlik verilməsi, partiya şəklində isə mitinqdə iştirak etməmək qərarı verilib.

Qubad İbadoğlunun rəhbərlik etdiyi Azərbaycan Demokratik Rifah Hərəkatı isə mitinqə qatılacaq. Təşkilatın sədr müavini Ellada Məmmədli bildirib ki, Qarabağın adı harada varsa, onlar orada olacaqlar.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## "ETSN brakonyerliyin qarşısının alınmasında israrlıdır" - İradə İbrahimova

**"Ekologiya və Təbii Snərvətlər Nazirliyi (ETSN) brakonyerliyin qarşısınnın alınmasında israrlnıdır, balıq ehtiyatlanrından səmərəli və ədnalətli istifadəni ən zəruri məsələ hesab endir". "Report" xəbər verirn ki, bunu mətbuat konnfransında ETSN-in nmətbuat katibi İradə İbrahimova deyib.**

Onun sözlərinə görə, Azərbnaycanın su hövzələrinndə balıq ehtiyatlarınnın tükənmə təhlükəsinnin olması hamıya məlnumdur: "Bu gün bu sərnvətin mühafizəsi və qnorunması olduqca aktunal və vacibdir. Nazirlik nçalışır ki, həm balıqn ovu ilə məşğul olanlnarın müraciətləri ədanlətli şəkildə təmin onlunsun, həm də əhalinnin qida zəncirində banlıq məhsulları yer alnsın, eyni zamanda gəlnəcək nəsillər üçün qonrunsun. Buna görə də sənaye balıq ovu ilə mnəşğul olanların qaydanlara əməl etmələri ilnə bərabər, vətəndaşlınq mövqeyi göstərmələrni də vacibdir. Bəzən nbalıqçı xırda nərə banlığını da tutur və bunnunla onsuz da nəslı kəsilməkdə olan nərən balıqlarının tamamilnə yox olmasına şəraitn yaradır. Yaxud da qanydalara məhəl qoymadann, qadağan olunmuş ovn alətlərindən istifadnə etməklə israfçılıq nedir, digər balıq növnlərinin də sayının aznalmasına səbəb olur. nBiz bundan çox narahantıq. Nazirlik tərəfinndən bununla bağlı qannunauyğun tədbirlər gnörülür, lakin brakonyerliyin tam aradan qanldırılması, tezliklə nəticə əldə olnunması üçün birgə mübnarizə aparılmasını vən hər kəsin bu işdə bızə yardımçı olmasını ngözləyirik. Hesab edırik ki, brakonyeri onnun yaxınları, qohumlanrı və qonşuları öz qınnaqları ilə daha tez ndüz yola gətirər. Bəznən ictimai qınaq bəzı hüquqi və inzibati tnənbehlərdən daha effenktli olur".

İ.İbrahimova bildirib ki, bəzı hallarda balıqçılarınn müraciətlərinə ədalnətli yanaşılmadığı, inhisarçılığa yol verıldiyi barədə Nazirliynə şikayətlər də daxiln olur: "Birmənalı olanraq bildiririk ki, mənqsədimiz bu cür yanaşnmaların tamamilə aradnan qaldırılmasına naıl olmaq, yerlərdə qaynda-qanun yaratmaqdan nibarətdir. Hesab edirnik ki, vətəndaşlarımınz neqativ hallarla banğlı dərhal Nazirliyinn "Qaynar xətt"inə və yan elektron poçtuna məlnumat versələr, belə hnalların qarşısı tezlıklə alınar. Hər bir vnətəndaşı ölkənin su hnövzələrində mövcud olan sərvətimizin qədrini bilməyə və gələcəkn nəsillər üçün qorumanğa çağırırıq".

**İyulun 4-də Gəncədə icra başçısı Elmar Vəliyevi qətlə yetirməyə cəhd edən və hazırda həbsdə olan Yunis Səfərovun bu günlərdə 35 yaşı tamam olub. Onun doğum günü ilə bağlı bəzi müxalifətçilər sosial şəbəkələrdə təmtəraqlı statuslar paylaşıblar. Bu statuslarda terrorçuluq kimi qiymətləndirilən cinayət törətmiş Y.Səfərov açıq şəkildə müdafiə olunub, hətta onu “qəhrəman” adlandıranlar belə var.**

# Avropadakı radikallar Yunis Səfərovun terrorçuluğuna haqq qazandırır

## Fərəc Quliyev: “Həmin şəxslər barəsində də cinayət işi açılmalı və cəzalandırılmalıdırlar”



Ən çox diqqəti isə Meydan.TV-nin Almaniyada yaşayan rəhbəri Emin Millinin statusu cəlb edib. O, Y.Səfərovun cinayətinə açıq şəkildə haqq qazandırıb. **Sitat**: “Sənin etdiyini edə bilmərəm, bəlkə cəsarətim çatmaz, bəlkə də həyata baxışım fərqlidir. Amma sənin etdiklərini bunlar unutmaq istəyir. Mesaj deyəsən tam çatmayıb bunlara. Bunlara dərs olmur. Nə qədər sözlə, sivil yollarla izah edirik, amma xeyri hələ yoxdur. Anlamırlar”.

Bir canini özünü demokrat kimi qələmə verən adamların müdafiə etməsi təpki ilə qarşılanıb. Y.Səfərovun terror kimi tövsif olunan cinayət törətməsinə Avropadakı radikalların hansı səbəbdən haqq qazandırması suallar doğurur. Bir maraqlı məqam da ondan ibarətdir ki, Azərbaycanın bəzi müxalif partiya üzvləri də bu radikallarla eyni mövqe sərgiləyən açıqlamalarla çıxış edirlər.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** bildirdi ki, kim tərəfindən törədilməsindən asılı olmayaraq cinayət pislənməlidir: “Bu, qanun pozuntusudur, cəmiyyətə hörmətsizlikdir. Digər tərəfdən burada sadə bir hadisə baş verməyib. Təsadüfən birinə qarşı kobudluq, yaxud avtomobil qəzası olmayıb. Burada bir nəfər, özü də xarici kəşfiyyatla bağlı olan birisi Azərbaycanın dövlət məmuruna və onun yanındakı şəxslərə atəş açıb. Dövləti təmsil edən bir şəxsdən söhbət getmir. Bu atəş dövlətə, bir düşüncəyə atılıb. Azərbaycan dövlətçiliyinə qarşı olan bir qəsddir. Bu insanlar dövləti təmsil edirlər. Dövlət başında duran şəxs dövləti təmsil edir, onun adından danışır. O bölgədəki şəxs də icra başçıdır. Ona qarşı sui-qəsd olub. Sübut olundu ki, bu şəxs İrandakı müəyyən qruplar tərəfindən göndərilib. Ona görə də belə məsələlərdə o məsələnin ağırlığına uyğun olaraq ortaya münasibət qoymaq lazımdır. Biz dövlətimizi müdafiə edirik. İctimaiyyət, siyasi palitra belə məsələlərdə ortaya konkret şəkildə mövqe qoymalıdır. Belə hadisələri, hərəkətləri nəinki müdafiə etmək doğru deyil, bu həmin cinayətə dəstək verməkdir. Bu da dövlətə qarşı cinayət törətmək kimi təsvir olunmalıdır. Belə mövqe tutan şəxsləri birmənalı şəkildə qınayıram. İctimaiyyət buna ciddi şəkildə etiraz etməlidir. Belə adamlar cəmiyyəti əllərində olan imkanlarla yanlış istiqamətə sürükləyə cəhd edə bilərlər. Cinayətə məruz qalan şəxs kim olursa olsun, günahı olsun və ya olmasın, heç kim kimisə təkbaşına mühakimə edə bilməz. Məmurdan söhbət gedirsə, lap o məmurun suçu olsun, heç kəs məhkəmə və ya onun icraçısı deyil ki. Kimin yanlışı varsa, məhkəməyə müraciət etmək olar, məhkəmə də onun haqqında ölçü götürə bilər. Cəzalandırmaq lazım gəlirsə, bunu dövlət qurumu edir. Hər kəs yerindən qalxıb, əlinə silahı alıb hökm icra edə bilməz. Onda xaotik bir cəmiyyət yaranar. O başqa bir məsələdir ki, yerini bilməyən məmurlar varsa, onlar dəyişilməlidir. İnsanlarla yola getməyən, korrupsiyaya qurşanmış şəxslər varsa, onlar cəzalandırılmalıdır. Özünü müxalif kimi adlandıranlardan birisi belə məqamlardan istifadə edib hakimiyyətdən xoşu gəlmədiyi üçün guya cinayətkarı müdafiə edirsə, bu da tamam absurd bir yanaşmadır. İstənilən halda belə hadisələrdə cinayət törətmiş, dövlət məmuruna və dövlətə qarşı silah işlətmiş şəxslər ağır şəkildə cəzalandırılmalıdır. Hər kəs bilməlidir ki, o məhkəmə deyil hökm versin. İcraçı da deyil ki, bunu icra etsin. Eyni zamanda, belə şəxslər başqa dövlətlərin xüsusi xidmət orqanlarına xidmət edib, gəlib ölkədə qarışıqlıq salmaq istəyirlərsə, həmin dövlətlərə qarşı notalar verilməli, o dövlətlər barəsində ölçü götürülməlidir. Ölkədə barışa söykənən bir sabitlik olmalıdır. Bunun da əsası ədalətə söykənməlidir. Bizim partiyanın mövqeyi budur ki, gecikən ədalət belə ədalətsizlikdir. Məmurlar insanların xidmətində durmalı, ağa kimi özlərini aparmalı deyillər. Qanunlara əməl etmək onların borcudur”.

**Deputat hökumətin cinayətkarları dəstəkləyən şəxslərlə bağlı addımlar atmasının vacibliyini də vurğuladı**: “İctimai qınaq öz yerindədir. Xaricdən maliyyələşdirilərək ölkənin üzərinə göndərilən bir cinayətkarın müdafiə olunması başqa dövlətin ölkəmizə bu formada olan basqısını müdafiə etməkdir. Bu da dövlətə qarşı getməkdir, eləcə də, terrora verilən dəstəkdir. Bu da Cinayət Məcəlləsi ilə təsdiq olunmalı, həmin şəxslər barəsində də cinayət işi açılmalı və cəzalandırılmalıdırlar. Əks halda hər kəs belə hərəkətlərdən, yəni cinayətkarın müdafiə olunmasından ruhlanar və nəticədə ölkədə özbaşınalıq baş alıb gedər”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# “Gəncədəki terror aktına dəstək verənlərin tam dairəsi müəyyən edilib” - baş prokuror

**“Gəncə Şəhər İcra Hakimiyyətinin sabiq başçısına qarşı baş vermiş terror aktı və daha sonra bu terror aktına dəstək verən şəxslərin tam dairəsi müəyyən edilib”.**

Trend-in məlumatına görə, bunu Azərbaycanın Baş prokuroru Zakir Qaralov deyib.

Baş prokuror qeyd edib ki, bu günə qədər 77 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Onlar müvafiq məhkəmələrin qərarları ilə həbs edilib, 11 nəfər haqqında axtarış elan edilib".

“Axtarışda olan 2 nəfər tutularaq ölkəyə gətirilib. Bəzi cinayətkarların yerləri müəyyən edilib, onların da ekstradisiyası ilə bağlı ciddi tədbirlər həyata keçirilir. Həmin terror aktının təşkilatçıları və təhrikçiləri istintaq tərəfindən tam müəyyən edilib”.

**Z.Qaralov əlavə edib ki, bu hadisədə əli olanlardan heç kim məsuliyyətdən kənarda qalmayacaq:** “Hesab edirik ki, bu ilin sonuna qədər cinayət işi yekunlaşacaq”.

# Qazax polis şöbəsindəki ölümlə bağlı polis mayoru da saxlanıldı

## Daha əvvəl tutulan Kərim Əhmədovun cinayət əməli törətməsinə dəlalət edən ilkin sübutlar toplandığından o, təqsirləndirilən şəxs qismində cəlb edilib

**Baş Prokurorluq Qazaxdakı ölüm hadisəsi ilə bağlı daha bir məlumat yayıb. Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, Elmir Axundovun Qazax rayon Polis Şöbəsində vəfat etməsi faktı ilə bağlı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) və 221.3-cü (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanıb. Aparılmış istintaqla Kərim Əhmədovun Cinayət Məcəlləsinin 221.3-cü maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməsinə dəlalət edən ilkin sübutlar toplandığından o, təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.**




İstintaq zamanı həmçinin rayon Polis Şöbəsinin növbətçi hissəsinin məsul növbətçisi, polis mayoru İlham Süleymanovun Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddəsində nəzərdə tutulan cinayət əməlini törətməsinə şübhələr üçün kifayət qədər əsaslar olduğundan şübhəli şəxs qismində saxlanılıb. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

Mərhum Elmir Axundovun bacısı Ülviyyə Axundova isə mətbuata verdiyi açıqlamada qardaşının polis şöbəsində döyüldüyünü iddia edir.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Qazax rayon Polis Şöbəsində baş verən ölümlə bağlı yaydıqları ilkin məlumatda isə qeyd olunurdu ki, sentyabrın 25-də Qazax rayon Müalicə Diaqnostika Mərkəzindən rayon sakini Elmir Axundovun ölmüş vəziyyətdə təcili-tibbi yardım briqadası tərəfindən xəstəxanaya gətirilməsi barədə daxil olmuş məlumat əsasında dərhal rayon Prokurorluğu və Polis Şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə meyitə baxış keçirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilib ki, E.Axundovun anası sentyabrın 24-də rayon Prokurorluğuna müraciət edərək oğlunun rayon sakini Kərim Əhmədov tərəfindən döyülməsini bildirib. Müraciət əsasında E.Axundovun izahatı alınıb, barəsində məhkəmə-tibbi ekspertizası təyin olunaraq müayinə edilib və döyülmə nəticəsində bədənində xəsarətlər aşkar edilib.

Eyni zamanda, qeyd edilən tarixdə K.Əhmədov da rayon Polis Şöbəsinə müraciət edərək E.Axundov tərəfindən döyüldüyünü bildirib. Bununla əlaqədar sentyabrın 25-də E.Axundov izahatının alınması məqsədilə rayon Polis Şöbəsinə dəvət edilib və həmin gün saat 22 radələrində səhhətinin pisləşdiyi üçün Təcili-Tibbi Yardım xidmətinə müraciət olunub, həkim briqadası rayon Polis Şöbəsinə gələrək E.Axundovu ölmüş vəziyyətdə rayon Diaqnostika Mərkəzinə aparıb. Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) və 221.3-cü (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Cinayət işinin istintaqı Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən nəzarətə götürülməklə hər iki qurumun məsul əməkdaşları Qazax rayonuna ezam olunub. K.Əhmədov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda iş üzrə digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

❑ **E.HÜSEYNOV,**
**Musavat.com**



# Mərhəmət duyğusunun qatilləri....

Xalid KAZIMLI

**Bu gün müxtəsər şəkildə iki hadisə yazacağam. Birini mənə jurnalist həmkarım Səlim Əzizoğlu danışıb, ikincisinə özüm şahid olmuşam. Səlimin danışdığı hekayət: "Bir gün "Elmlər Akademiyası" metrosundan çıxdım, Yasamal məhkəməsinin köhnə binasına aparan küçəylə işə gedirdim.**

Bir də gördüm, orta yaşlı, qara paltarlı bir qadın alnını binanı fasadına söykəyib, durub. Yaxınlaşanda gördüm, sakit-sakit ağlayır. Dayandım, dedim, bacı, nə olub, nə problem var. O döndü, üzümə baxdı, bir qədər susdu, sonra dedi ki, evdə xəstəsi var, üstəlik, çörək almağa pulu yoxdur, dərdini kimə deyəcəyini bilmir. Qadın bildiyimiz dilənçilərə oxşamırdı, düzünə qalsa, heç dilənib eləmirdi, sadəcə, üzünü divara tutub ağlayırdı, heç kəsdən heç nə istəmirdi. Düşündüm ki, ona kömək edim. Cibimdəki pulu çıxardım, yarısını ona verdim, dedim, halal xoşun olsun. Çıxıb getdim. Üstündən 15-20 gün keçəndən sonra bir də həmin vaxtda həmin küçəylə gedəndə gördüm ki, həmin yerdə daha bir qadın üzü divara dayanıb ağlayır. Yaxınlaşdım ki, həmin qadındır. Başa düşdüm ki, demək, onun da dilənçilik üsulu budur".

İkinci bənzər hadisəyə isə 5-6 il öncə "20 Yanvar" metrostansiyasında özüm şahid oldum. Səhər ertəydi, camaatın işə-gücə gedən vaxtıydı. Metro vaqonuna təxminən 55-60 yaşlı, bir gözü sarıqlı, səliqəli geyimli kişi mindi və uca səslə dedi: "Camaat, mən dilənçi deyiləm. İndicə "Respublikanski"dən çıxmışam. Olan-qalan nəyim vardısa, həkimlərə vermişəm. İndi Göyçaya getməliyəm. Sizdən yol pulu istəyirəm. Allah razı olsun".

Elə bizim vaqondaca kişinin yolpulu düzəldi. Cavanlar, qadınlar, orta yaşlı adamlar, hərəsi ona 1-2 manat verdilər. Utandığından gözüsarıqlı kişiyə qəpik uzadan olmadı, hamı kağız pul verdi. Axı adama yolpulu lazımdı, rayona gedəcək. Həm də o, dilənçi deyil axı. Sadəcə, ehtiyacı var. Zalım həkimlər əlində nəyi varsa, alıblar. Kişi pulsuz qalıb.

"İnşaatçılar"da kişi vaqondan çıxdı. Düzü, bir az şübhəli qalmışdım. Ona görə də ona göz qoydum. Mənim düşüncəmə görə, o, artıq yenidən "20 Yanvar"a qayıtmalı, oradan da rayona gedən taksilərin durduğu yerə getməliydi. Çünki artıq onun rayona taksiylə getməsinə bəs edəcək qədər pul toplanmışdı - həm də cəmi 1 dəqiqənin içində.

Ancaq kişi o biri vaqona mindi. Bəlkə pul azlıq edir, daha bir vaqondan 3-5 manat toplamaq istəyir, kim bilir? Şübhəli qaldım.

Bu sirrin üstü də təxminən bir aydan sonra açıldı. Bir dəfə axşamüstü işdən qayıdanda "İnşaatçılar" metrostansiyasında vaqonda qulağıma tanış səs dəydi: "Camaat, mən dilənçi deyiləm. İndicə "Respublikanski"dən çıxmışam. Olan-qalan nəyim vardısa, həkimlərə vermişəm. İndi Göyçaya getməliyəm. Sizdən yol pulu istəyirəm. Allah razı olsun".

Həmin gözüsarıqlı kişiydi, həmin görkəmdəydi, camaatın içiylə pul (yenə də əskinaslar) toplaya-toplaya mənim durduğum yerə tərəf gəlirdi. O yanıma çatanda asta səslə qulağına dedim: "Ağsaqqal, siz bir aydır hələ Göyçaya gedib çıxmamısınız?".

O, başını qaldırdı, tək gözü ilə üzümə baxdı, heç nə demədi və qapı açılan kimi düşüb o biri vaqona keçdi.

Həmin gün mən də jurnalist həmkarım Səlim kimi əmin oldum ki, bu, çox da populyar olmayan dilənçilik üsullarından biridir.

Üstəlik bu, daha hiyləgər və daha etibarlı dilənçilik üsuludur. Adam insanlara yalvarmır, sadəcə problemini deyir, ürəyiyumşaq insanlar ona inanır, ürəkləri yanır və daha artıq, daha çox pul verirlər. Başqa dilənçilərə 20 qəpik verib keçmək mümkündürsə, belələrinə 20 manat versən də, öz gözünə az görünür, deyirsən, o, peşəkar dilənçi deyil axı, sadəcə, ağır duruma düşüb, ehtiyacı var.

Dünyanın hər yerində belədir, peşəkar dilənçilərə, özünü bu yola qoyan xırda dələduzlara qəpik pul verməyən insanlar ehtiyacı olan birinə daha çox pul yardımı etməyi üstün tuturlar.

Öz xəstəliklərindən, problemlərindən yararlanaraq, insanların duyğuları üzərində oynayaraq, pul-para, hətta sərvət toplayan məşhur adamlarla "20 Yanvar" metrostansiyasının həndəvərində "Sumqayıta gedirəm, yol pulum yoxdur" deyə camaatı dəng edən dələduzlar arasında fərq yoxdur. Sadəcə, ikincilər az pula qane olursa, birincilər daha çox pul tələb edirlər. Mahiyyətsə eynidir - dilənçilik.

Ən pisi isə odur ki, onlat insanların içindəki mərhəmət duyğusunu öldürürlər və əsl yardıma ehtiyacı olanlar binəsib qalır.

# "Səlim Müslümov peşəkar maliyyəçidir"

## Qadir İbrahimli: "Düşünürəm ki, Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasına yaxşı töhfə verəcək"

**Azərbaycanda nazir kürsüsündən müəllim stuluna keçənlərin sırasına biri də əlavə olunub. Belə ki, keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov yeni vəzifəyə təyinat alıb.**

"Yeni Müsavat" modern.az-a istinadən xəbər verir ki, Səlim Müslümov Milli Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasının müdiri vəzifəsinə təyin olunub. Nazirin yaxınları sayta bildirib ki, eks-nazirin Bakıdan kənarda olması və səhhətində problemlərin yaranması barədə məlumatlar əsassızdır: "Ölkədən kənara çıxması barədə deyilənlər yalandır. Səlim Müslümov hazırda elmi işlə məşğuldur. Bu yaxınlarda Milli Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasının müdiri vəzifəsinə təyinat alıb. O, əvvəllər Azərbaycan Dövlət İqtisad Universitetində də çalışıb. Həmçinin, Səlim müəllimin xarici ölkələrdə də pedaqoji təcrübəsi olub. Rus və ingilis dillərində sərbəst danışa və dərs deyə bilir".

Milli Aviasiya Akademiyasından S. Müslümovun Dünya iqtisadiyyatı kafedrasının müdiri vəzifəsində işlədiyini təsdiqləyiblər.



İqtisadçı-ekspert, "Güzəran" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Qadir İbrahimli bildirir ki, S.Müslimov İqtisad Universitetinin maliyyə kafedrasının ən yaxşı müəllimlərindən olub: "Ona görə də onun kafedra müdiri təyin olunmasında təəccüblü heç nə yoxdur. Yəni Səlim Müslimov Tağı Əhmədov və ya Etibar Pirverdiyev deyil".

Q.İbrahimlinin sözlərinə görə, İqtisad Universitetində təhsil alan zaman sabiq nazir orada müəllim işləyib: "Səlim Müslümov çox yaxşı maliyyəçidir. Hesab edirəm ki, onun karyera yüksəlişində bu amil çox mühüm rol oynayıb. O, hansısa klana daxil olmayıb, sırf peşəkar maliyyəçi olduğu üçün karyerasında nailiyyətlər əldə edib. Vəzifəyə yüksələndən sonra hansısa korrupsiya əməllərində iştirak edib-etməməsi başqa söhbətin mövzusudur və mən bu barədə nəsə deyə bilmərəm. Amma universitetdə mənimlə eyni dövrdə oxuyan tələbə dostlar var, Səlim Müslümov onlara dərs keçib. Onların hamısı Səlim müəllimin peşəkar və yüksək səviyyəli müəllim olduğunu deyirlər, həmişə də ondan razılıq edirlər".

İqtisadçı hesab edir ki, Milli Aviasiya Akademiyası S.Müslümovun timsalında bacarıqlı və layiqli müəllim qazanıb: "O, uğurlu müəllimdir. Düşünürəm ki, Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasına yaxşı töhfə verəcək".

Onu da qeyd edək son illərdə Azərbaycanda vəzifədən azad olunan məmurların xeyli hissəsi məhz müəllimliklə məşğul olur. Məsələn, sabiq maliyyə naziri Əvəz Ələkbərov İqtisad Universitetində, Dövlət Gömrük Komitəsinin sabiq sədri Aydın Əliyev Bakı Dövlət Universitetində, sabiq təhsil naziri Misir Mərdanov Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda çalışır.

❑ DÜNYA,
"Yeni Müsavat"
Naçalo formı

# Akim Bədəlovun "Azərişıq"a sədr təyin ediləcəyi iddia olunur

## Agentlik rəhbərinin yeni vəzifəyə hazırlaşdığı deyilir

**"Azərişıq" ASC-nin sədri Baba Rzayev "Azərenerji" ASC-yə prezident təyin ediləndən bəri onun keçmiş vəzifəsinə təyinat olmayıb.**



Xatırladaq ki, bu il sentyabrın 4-də ölkə prezidentinin sərəncamı ilə Etibar Pirverdiyev "Azərenerji"nin rəhbəri vəzifəsindən azad olunub. Onun yerinə prezidentin digər sərəncamı ilə "Azərişıq" sədri Balababa Rzayev təyin edilib. Artıq dörd həftəyə yaxındır ki, "Azərişıq" sədri postuna təyinat aparılmayıb.

B.Rzayevin təyinatından sonra cəmiyyətdə "Azərişıq" ASC-nin də yenidən "Azərenerji"yə birləşdiriləcəyinə dair məlumatlar yayılıb. Lakin əldə etdiyimiz məlumata görə, hazırda bir sıra dövlət qurumlarında "Azərişıq"a rəhbər təyinatı ilə bağlı gözləntilər var. Belə qurumlardan biri də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyidir. Agentliyin rəhbəri Akim Bədəlovun cidd-cəhdlə "Azərişıq" rəhbərliyinə hazırlaşdığı bildirilir. Bu hazırlıq barədə Agentlikdə xeyli müzakirələrin aparıldığı qeyd olunur. Qurumun işçilərindən qəzetimizə verilən məlumata görə, agentlikdə yüksək vəzifə tutan bir neçə şəxs təyinatla bağlı xəbəri alandan sonra Akim Bədəlova yaxınlaşmaq uğrunda əməlli-başlı mübarizə aparırlar.

Onu da qeyd edək ki, Akim Bədəlov 1956-cı ildə Naxçıvan şəhərində anadan olub. Fizika və riyaziyyat (Geofizika) üzrə fəlsəfə doktorudur. A.Bədəlov Xəzər dənizinin Riyazi Hidro-dinamik Modelinin müəllifidir. O, hidrodinamika, okeanoqrafiya, geofizika və riyaziyyat üzrə iki kitabın və 20-dən yuxarı elmi məqalələrin müəllifidir. Moskva Elmlər Akademiyasının Okeanologiya və Okeanoqrafiya İnstitutunda və sonra isə Azərbaycan Təbii Sərvətlərin Kosmik Tədqiqatları İnstitutunda işləyib. "Xəzər" (Kaspi) Elmi və Texnoloji Mərkəzin direktoru və sonra isə Direktorlar Şurasının sədri vəzifəsində çalışıb.

2012-ci ildə yaradılan Alternativ və Bərpa Olunan Enerji Məsələləri Dövlət Şirkətinin, 2013-cü ildə isə eyni adlı Agentliyin rəhbəri təyin olunub.

❑ TURQUT,
"Yeni Müsavat"

# İlqar Məmmədov ajiotajı bitdimi?

## Azər Qasımlı: "Zamanı gələndə hamısına cavab veriləcək"

**Ötən ay 5 il yarımlıq həbsdən sonra azadlığa çıxan REAL Partiyasının sədri İlqar Məmmədov son günlərdə sanki gündəmdən düşüb. Ona qarşı müxalifət düşərgəsi daxilindən olan hücumlar da sanki səngiyib. Xüsusilə, bu hal onun sentyabrın 4-də keçirdiyi mətbuat konfransından sonra özünü daha çox büruzə verir.**



REAL sədrinin öz facebook profilində paylaşdığı statuslara gələn bəyənmələr də kəskin şəkildə azalıb. Bütün bunlar bəzi suallara yol açır.

REAL funksioneri Azər Qasımlı "Yeni Müsavat"a bunları dedi: "İlqar Məmmədova hücumlar hələ də davam edir. Sadəcə bir az səngiyib. Bu hücumları edənlər İlqar bəyin yaxud REAL rəhbərliyində təmsil olunan şəxslərin onlara cavab verməsini gözləyirdilər. Çalışırdılar ki, biz də bu çirkaba bulaşaq. Biz isə onlara cavab vermədik. Bu səbəbdən hücumlar səngidi. Amma biz onu da bilirik ki, müəyyən müddət keçəndən sonra yenə hücumlar başlayacaq. Qarayaxma kampaniyasına start veriləcək, ajiotaj yaradılmağa çalışılacaq. Hələ hər şey qabaqdadır. Bunlar sistemin hücumudur. Həm iqtidar, həm də onunla birlikdə köhnə müxalifət bunları etdi. Ümumi müxalifətin hücum etdiyini demək olmaz. İlqar Məmmədova qarşı qarayaxma kampaniyasında hər iki tərəf maraqlı idi. Bu məsələdə iki tərəfin də maraqları üst-üstə düşdü. Biz hücumları partiyada bu şəkildə dəyərləndirdik. Çirkaba girmək istəməsək də, hər kəs onu bilsin ki, zamanı gələndə hamısına cavab veriləcək. İlqar Məmmədov belə hücumlar olacağını gözləyirdi. Həbsdə olanda bilirdi ki, azadlığa çıxdıqdan sonra üzərinə gələnlər olacaq. Bu baxımdan deyirəm ki, bunlar hələ başlanğıcdır. Yeni hücumların olacağı istisna deyil".

A.Qasımlı REAL rəhbərinin gündəmdən düşdüyü barədə fikirlərə də münasibət bildirdi: "Həyat və siyasət yalnız İlqar Məmmədovdan asılı vəziyyətdə deyil ki. Ölkə daxili və xaricində olduqca ciddi proseslər baş verir. İstənilən halda o fikirlərlə razıyam ki, siyasətçilər və siyasi qurumlar gündəm yaratmalıdırlar. Bunun üzərində bizlər düşünürük. Fəaliyyətimiz bundan sonra ondan ibarət olacaq ki, siyasi həyatda yeni gündəmlər yaradaq. Bunu da biz yaradacağıq, kimlərsə deyil".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 204 (7093) 29 sentyabr 2018

# "Katyuşa" nəslindən olan "Polonez" - ermənilər təşvişdə

## Azərbaycanın Belorusdan aldığı raket kompleksləri barədə ilginc məlumatlar; **hərbi ekspert**: "Ermənistanın hər hansı KMTM üzvünə irad bildirməsi yersizdir"

**Azərbaycanla Belarus arasında hökumətlərarası razılaşmaya əsasən 301 mm-lik "Polonez" əməliyyat-taktiki raket komplekslərinin növbəti partiyası ölkəmizə gətirilib. Bu barədə Müdafiə Nazirliyinin yaydığı məlumat işğalçı Ermənistanda ciddi narahatlıq yaradıb.**



Qeyd edək ki, bu raket komplekslərinin ilk partiyası əvvəlki dönəmdə ölkəmizə gətirilmişdi. Anlaşmaya uyğun olaraq, növbəti partiyanın gətiriləcəyindən əndişələnən İrəvan Belarusla KTMT çərçivəsində əməkdaşlığı əsas götürərək Minskə narahatlığını çatdırmışdı. Lakin blogger Lapşin məsələsində olduğu kimi, "Polonez" anlaşmasında da Lukaşenko hökuməti Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinə sadiqlik nümayiş etdirdi, faktiki olaraq, Ermənistan rəhbərliyini saya salmadı. Belarusun bu prinsipiallığını aprel döyüşlərindən sonra da görmüşdük. Minsk ona çətin günlərində maddi və mənəvi dayaq olan Azərbaycan dövləti ilə münasibətləri heç nəyə qurban vermədi və işğalçı Ermənistanı yerində oturtdu. Erməni ekspertlər "Polonez" raket komplekslərini Ermənistanın Rusiyadan hədiyyə kimi aldığı "İsgəndər" silahına cavab kimi qiymətləndirirlər. Düşmənin narahatlığı anlaşılandır. Azərbaycan ilbəil özünün silah arsenalına yenilərini əlavə edir.

Bu arada Ermənistan parlamentində 2019-ci ilin dövlət büdcəsi layihəsi müzakirə olunub. Məlum olub ki, ümumi büdcə 1 trilyon 685 milyard dram (3,48 milyard dollar) təşkil edəcək. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, planlaşdırılan hərbi büdcə 60 milyard dram (640,2 milyon dollar) təşkil edəcək. Gələn il üçün yeni növ silah və hərbi sursatların alınması da büdcədə nəzərdə tutulur. Bu il Azərbaycanın hərbi büdcəsi 2 milyard 738 milyon 721 min manat məbləğində nəzərdə tutulmuşdu. Düşməni narahat edən odur ki, kredit hesabına bəzi silahları almağa çalışdığı halda, Azərbaycan öz imkanları sayəsində müasir silah-sursatları ilə ordusunu təchiz edir. Elə bu il ölkəmizdə keçirilən iki hərbi parad, həmçinin silah sərgisinə ev sahibliyi etməsi də dövlətimizin imkanlarını və qüdrətini göstərir.

Belarusdan alınan "Polonez"in maksimal atış uzaqlığı 300 kilometrə qədərdir. Raketin çəkisi 780 kiloqram, döyüş başlığı hissəsinin çəkisi 140 kiloqram, zərərvurma radiusu isə 80 metrdir. "Polonez"in maksimal uçuş müddəti saniyədə 310 metr, atışa hazırlıq vaxtı 10 dəqiqə, istismar müddəti isə 10 ildir. Bir döyüş maşınında 8 raket olur. Bu kompleks düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunların əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurulması üçündür. Bundan başqa, kompleks vasitəsilə dənizsahili istiqamətlərdə düşmən donanmasının yerləşmə məntəqələri dağıdılır və onun döyüş gəmiləri məhv edilir. Əməliyyat-taktiki raket kompleksi olan "LORA" da "Polonez" kompleksi kimi döyüş zamanı eyni məqsədlər üçün istifadə edilir. Maksimal atış uzaqlığı 300 kilometrdən artıq olan bu kompleksin raketinin çəkisi 1580 kiloqram, döyüş başlığı hissəsinin çəkisi isə 240 kiloqramdır. Raketin zərərvurma radiusu 100 metr təşkil edir. Bir döyüş maşınında 4 raket olur. Onların maksimal uçuş müddəti saniyədə 300 metrdir, atışa hazırlıq vaxtı 13 dəqiqə, istismar müddəti 10 ildir. Həm "Polonez", həm də "LORA" kompleksləri GPS və INS sistemləri ilə idarə olunur.

Qeyd edək ki, bu ilin yazında Belarusun "Polonez" reaktiv yaylım atəşi sistemlərinin ixracına dair ilk müqavilənin yerinə yetirilməsinə başlayacağı bildirilmişdi. Bildirilirdi ki, müqavilə çərçivəsində 10 "Polonez" kompleksinin ixracı nəzərdə tutulur, alıcı isə Azərbaycandır. "Polonez" kompleksləri ilk dəfə 2015-ci ildə Minskdə hərbi parad zamanı nümayiş etdirilib, daha sonra raketlər poliqonda sınaqdan keçirilib və 300 kilometr məsafədə hədəfi 10-20 metr dəqiqliklə vurub. Çinin A-200 raketləri ilə təchiz edilən, Belarus hərbi sənayesinin idarəetmə sistemi ilə hədəfə yönləndirilən "Polonez" kompleksləri yüksək dəqiqlikli silah sistemi kimi özünü doğruldub.

Onu da qeyd edək ki, Azərbaycan ən güclü orduya malik ölkələr sırasında 58-ci yerdədir. Bu barədə "Global Fire Power" portalının hesabatında deyilir. Azərbaycanla müharibə vəziyyətində olan Ermənistan isə 93-cü yerdə qərarlaşıb.

**Hərbi ekspert Tərlan Eyvazov** "Yeni Müsavat"a bildirdi ki, "Polonez" silahı yaylım atəşi kompleksidir: "Bu, "Katyuşa"nın nəslindəndir, amma daha müasirdir. Minskdə yığılıb, yalnız mühərrik Rusiyadan alınır. Aparıcı mühərrik isə Çindən idxal olunur. Əvvəllər belə bir məlumat yayıldı ki, guya bu səbəbdən cinlilərin icazəsi olmadan Belarus onu üçüncü ölkəyə sata bilməz. Amma bu, doğru deyil. Belarus bu silahı xarici ölkələrə satmaqda sərbəstdir. Ölkəmizə gətirilən birinci partiya artıq uğurla sınaq təlimlərindən keçib. Artiq ikinci partiya gətirilib".

**T.Eyvazov Azərbaycanın bu silah komplekslərini almasına hansısa ölkənin təsir göstərməsini mümkün saymır**: "Azərbaycan və Ermənistan arasında müharibə rəsmi şəkildə elan olunmayıb. Ermənistan özü də bunun ona aidiyyəti olmadığını, bu münaqişənin "Dağlıq Qarabağın öz müqəddəratını həll etmək uğrunda mübarizəsi" kimi qələmə verir. Belə olan halda Ermənistanin hər hansı KMTM üzvünə irad bildirməsi yersizdir. Burada Belarusun çox böyük kommersiya maraqlari təmin olunur, nədən Minsk öz xeyrindən kimsə Ermənistana görə imtina etməlidir?"

**Ekspert onu da dedi ki, siyasətdə hər şey maraqlar üzərində qurulur**: "Nə qədər mənfi yanaşsaq da, Rusiya kini fövqəldövlətin rəhbərinin ölkəmizə rəsmi səfəri və öncədən deyilsə də, Ermənistana getməməsi bizim üçün çox önəmli hadisədir. Deməli, ölkəmiz həm Rusiya, həm İran, həm Almaniya, həm də İsrail üçün böyük önəm kəsb edir. Ermənistan lideri isə yalniz populizmlə məşğuldur. Ortada ciddi bir iş, layihə yoxdur".

❑ **Cavid TURAN,
"Yeni Müsavat"**

# Azərbaycan Türkiyə ilə birgə silah istehsal edəcək - rəsmi açıqlama

**Azərbaycan Müdafiə Sənayesi Nazirliyi Türkiyənin silah, sursat, partlayıcı maddə, maşın, avadanlıq və digər məhsullar istehsal edən Maşınqayırma və Kimya Sənayesi Quru Maşınqayırma və Kimya Sənayesi təşkilatı (MKEK) birgə məhsul istehsal etməyi planlaşdırır. Artıq Müdafiə Sənayesi Nazirliyi MKEK-yə birgə məhsul istehsal etmək barədə təklif edib.**



Avropa.info xəbər verir ki, bu barədə məlumat verən MKEK rəhbərinin müavini Akif Akgülün sözlərinə görə, Azərbaycanla birgə əməkdaşlıq sahədə addımlar atılmaqdadır.

"Biz Azərbaycanın müdafiə sənayesinin inkişafına ciddi dəstəklər vermişik. MKEK əvvəllər Azərbaycana "Fırtına" mərmilərini satmağa cəhd göstərsək də, bu məhsulun ixracına icazə verilmədiyindən bu təşəbbüs nəticəsiz qaldı. Buna baxmayaraq, əməkdaşlıq istiqamətdə fəaliyyətimiz davam edir. Hazırda Müdafiə sənayesi nazirliyi ilə MKEK arasında çox yaxşı münasibətlər mövcuddur. Bizim istehsal etdiyimiz snayper silahları Azərbaycan Silahlı Qüvvələrində istifadə olunur. Nazirliyin 35 istehsal müəssisəsi mövcuddur və biz bu müəssisələrə yarı məmulat və məmulat veririk. Müdafiə Sənayesi Nazirliyi rəsmiləri görüşümüzdə MKEK ilə uzun müddətli marketinq və birgə istehsal fəaliyyətləri aparmaq təklifi aldıq" - deyə A. Akgül bildirib.

**Onun sözlərinə görə, ümid edirik ki, bu istiqamətdə əməkdaşlıq davam edəcək:** "Uzunmüddətli marketinq və birgə məhsul istehsalı ilə bağlı razılaşmaya çox yaxınıq. Bununla da MKEK-in Azərbaycanla əlaqələri daha da inkişaf edəcək".

# Azərbaycanda kişilərin ilkin hərbi qeydiyyata alınması yaşı aşağı salınır

**Azərbaycanda kişi cinsli vətəndaşlar 16 yaşında deyil, 15 yaşında ilkin hərbi qeydiyyata alınacaq.**

Virtualaz.org-un məlumatına görə, bununla bağlı "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna dəyişiklik edilir.

Bu, Milli Məclisin Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Komitəsinin bu gün keçirilən iclasında müzakirə edilib.

Qanunun 6-cı (Vətəndaşların ilkin hərbi qeydiyyata alınması) maddəsinin birinci cümləsinə əsasən, hər il yanvar-mart ayları ərzində həmin il 16 yaşı tamam olan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları yaşayış və ya olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanında ilkin hərbi qeydiyyata alınmalıdırlar. Dəyişikliklə yaş həddi 16-dan 15-ə endirilib.

**Layihədə bildirilib ki, cari ilin 1 sentyabr tarixindən tətbiqinə başlanılmış yeni nəsil şəxsiyyət vəsiqələrinin 15 yaşdan verilməsi nəzərə alınaraq təcrübədə baş verə biləcək uyğunsuzluqların qarşısının alınması məqsədi ilə ilkin hərbi qeydiyyatın da 15 yaşdan aparılması təklif edilir.**



# Respublikanın adındakı hərflər

Zamin HACI
zaminhaci@gmail.com

"Xudam məni, səni yoxdan yaradıb,
Sən də bircə milçək yarat, erməni!
Bir qönçə bitəydim dostun bağında,
Dilimlə deyəydim yara: dər məni!"
**(Aşıq Ələsgər)**

**İqtisadiyyat nazirinin müavini deyibdir ki, Azərbaycanda heç bir aclıq problemi yoxdur. Doğrudan belədir. Bizdə aclar yoxdur, bizdə toxlar var. Həddən artıq toxlar. Bizimki toxluq problemidir. Aclar bir sinif olaraq çoxdan ləğv edilmişdir. Axırıncılar özlərini Koroğlu körpüsündən atdılar, külək apardı. Elə nazir müavini də bunun statistikasını açıqlamışdır ki, ürəyimiz sakit olsun. Deyir, uğurlu siyasətin nəticəsində ölkəmizdə yoxsulluğun səviyyəsi 5 faizdən aşağı endirilmişdir. Bu da çox düz söhbətdir, çünki yoxsulluq səviyyəsiz bir haldır. İnsan indiki zəmanədə niyə yoxsul olsun? Maşallah, hər tərəfdə iş-güc, pul-para tökülüb qalıbdır. Yığışdır, yaşa. İstəyirsən neft sektorunda işlə, istəmirsən, qeyri-neft sektorunda. Hətta ən imkansız halda hansısa ağacın dibindəki kölgəni ərəb turistə 5 manata satıb yaşamaq olar. Beş dənə toyuq dönəri eləyir. Özüm görmüşəm, yazmışdı məktəblilər üçün dönər 1 manatdır. Düz məktəbin ağzında. Əgər səni məktəbli saymasalar hansısa uşağı tutub aldırmaq olar. Onsuz bütün günü "əmi-dayı"larına siqaret və araq daşıyırlar. Uşaqların bu cür istismarı yolverilməzdir! Əlbəttə, bu da YUNİSEF-in günahıdır, hökumətimizə dəxli yoxdur. Nəsə, qatdıq-qarışdırdıq, tema hardasa qaldı.**

Yeri gəlmişkən, ölkəmizdə yoxsulluğun aradan qalxmasının daha bir təzahürü keçən həftə Bərdə rayonunda yaşandı. Orada Zahid müəllimi deputat seçdilər... Yox, oxuculardan üzr istəyirəm, bu bir az boyat xəbərdir, hərçənd, ola bilsin hadisədə Zahid müəllimin xalq üçün fəaliyyətindən aşırı təsirlənmələr də mövcud olmuşdur. Ya da belə deyək: bu versiya istisna olunmur, yaşamaq hüququ vardır. Bərdədə bir ailənin 10-cu uşağı doğulmuşdu. Ata deyir, məqsədimiz uşaqların sayını "Azərbaycan" sözündəki hərflərin sayına çatdırmaq idi. Yəqin uşaqları sıra ilə düzüb adlarının baş hərflərindən uca vətənimizin adını yaradırlar. Yaradıcı insan belədir. Millətimiz yaşayıb yaratmağa meyllidir. Əks halda Madaqaskar da 10 hərfdir, ancaq orda heç kəsin ağlına gəlmir uşaqların sayını 10-a çatdırsın. Çünki çatdırmaq mümkün də deyil, sabitlik yoxdur, uşaq artdıqca, yarısı cəngəllikdə azır, yarısını lemurlar yeyir, bəzilərini xameleonlar happıldadır. *(Diqqətli oxucu müəllifin Madaqaskar fauna aləmi haqda kasad bilgilərinə bığaltı qımışır. Əgər oxucu zənən xeylağıdırsa yaylıqla yaşmaqlanıb qımışmaq imkanlarını tanıyırıq).* Ümid edək bərdəli ailə dövlətimizin rəsmi adını gələcək fəaliyyətində nəzərə alacaqdır, çünki bizdə iş "Azərbaycan"la qurtarmır, bunun "Respublikası" hissəsi də vardır. 22 uşaq eləyir, bu isə zənnimcə problem olmamalıdır - rəhmətlik ümummilli qoyunotaranımız Çoban Xanışın hardasa bu qədər uşağı dövlətçiliyimizə xidmət edirdi. Ya 21, ya 22 olmalı idi, ondan sonra reportajlar kəsildi, ardını bilmədik.

Ümumiyyətlə, çoxuşaqlı olmaq yaxşıdır, ən əsası prosesin özü maraqlıdır. Elə bölgəmizdə də maraqlı proseslər olur. Misal üçün, bu dəqiqə bütün dünya rus agentlərin Britaniyada zəhərli maddə ilə adam öldürmək cəhdinin uğursuzluğuna lağ etməkdədir. Deyirlər, eşşək boyda kəşfiyyat idarəsi polkovnik rütbəli casusların bir nəfər keçmiş rus agenti öldürməyə yollayıb, ancaq bunlar nəinki tapşırığı batırıblar, həm də az qala Britaniyanın yarısında videokameralara yaxalanmağı "bacarıblar". Öldürüləcək adamın yerinə bir yazıq "bomju" zəhərləyib öldürüblər. Təkzibləri lap anekdot oldu, deyirdilər, guya Solsberi şəhərinə kilsəyə baxmağa gedibmişlər. Ancaq burada Qərbin Rusiyaya gülməsi, rus casusların hərəkətində hansısa incəlik axtarması yersizdir. Guya ruslar haçan incə hərəkət ediblər? Tarixdə bir dənə belə fakt yoxdur. Ağzında "rus ayısı" deyirsən. Bunlar həmişə dünya siyasətində, qonşulara münasibətdə sirkdən qaçmış və bazara girmiş ayı kimi davranıblar. Qabaqlarına keçən masaları aşırıblar, məhsulları dağıdıblar, kim rast gəlsə dişləyib yaralayıblar. O ingilislərdir ki, beləncik əməlləri uzaqdan, incə formada ediblər və nəticədə "ingilis barmağı" ifadəsi yaranıbdır.

**İndi söz əlaqədar təşkilatlarındır, hərçənd heç bilmirəm gəlib nə deyəcəksiniz.**

# İrəvan "haça-paça" durumda: "Qarabağda müharibənin fitili çəkilsə..."

## Ermənistanla Rusiya arasında həm də əsəb savaşı başlayıb; **Putinin köməkçisi:** "Növbənizi gözləyin, Rusiya prezidentinin İrəvana tezliklə səfər etməsinə ehtiyac yoxdur"; **erməni nəşri:** "Uşakovun təhqiramiz sözləri..."

**Dünən Tacikistanın paytaxtı Düşənbə şəhərində MDB-nin növbəti sammiti keçirilib. Faktiki fəaliyyətsiz olan bu qurumun Düşənbə toplantısı zamanı bizim üçün ən çox diqqətçəkici məqam Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ayaqüstü təmas oldu.**

Paşinyan hökuməti Rusiya ilə Qərb arasında təhlükəli var-gəli davam etdirir; yeni baş nazir öz xalqına inqilabın şirin "meyvələri"ndən çox, acıları yedirtmək zorundadır - səbəb; erməni nəşri: "Moskva və Bakı bizə növbəti pisliyi etməyə hazırlaşır..."

Xəbər verilir ki, sammitin rəsmi açılış mərasimi zamanı MDB ölkələrinin başçıları əlifba sırası ilə yanaşı durublar. Bu zaman Azərbaycan prezidenti ilə Ermənistanın baş naziri yanaşı dayanmalı olub. Rəsmi fotoçəkiliş bitəndən sonra liderlər sammitin keçiriləcəyi zala istiqamət alıblar. Bu zaman isə İlham Əliyevlə Nikol Paşinyanın ayaqüstü nəsə danışdıqları kameraların diqqətindən yayınmayıb.

*****

"Yeni Müsavat" xatırladır ki, İlham Əliyevlə Nikol Paşinyan arasında ilk təmas bu ilin iyun ayında Moskvada futbol üzrə Dünya Çempionatının açılış mərasimi zamanı olmuşdu. O zaman Rusiya prezidenti Vladimir Putin Paşinyanı Azərbaycan dövlət başçısı ilə tanış etmişdi. Erməni baş nazir belə demişdi. Amma Paşinyanın sözlərinə görə, məsələ formal tanışlıqdan uzağa getməmişdi. Düşənbədə isə İlham Əliyevlə Paşinyan ilk dəfə bir-birləri ilə danışıblar.

Tacikistan paytaxtında bu qısamüddətli ayaqüstü danışıq Nikol Paşinyanın Qarabağa dair verdiyi son ziddiyyətli və qızışdırıcı bəyanatlardan və Azərbaycan prezidentinin ona sərt xəbərdarlığından sonra reallaşan ilk təmas kimi xüsusilə diqqət çəkir. O sırada erməni baş nazirin iki gün qabaq BMT tribunasından etdiyi fitnəkar çıxışdan sonra Tacikistana gəlməsi də nəzərdən yayına bilməzdi.

*****

Məsələ də ondadır ki, dünya birliyinin, xüsusən də Qərbin gözündə özünü demokrat kimi qələmə verib sonuncudan böyük siyasi-maliyyə dəstəyi almağa çalışan Paşinyan Dağlıq Qarabağ məsələsində sələflərindən də radikal mövqe nümayiş etdirir və bununla, faktiki, böyük sülhü deyil, müharibəni yaxınlaşdırır. Belə avantürist siyasətin bütün mümkün və ağır nəticələrinə görə də ilk növbədə o - işğalçı ölkənin təzə rəhbərliyi cavabdehlik daşıyacaq.

Rusiya prezidenti Vladimir Putinin son Bakı səfəri həm də İrəvanın bu kursuna etiraz idi. Çünki müharibə Moskvanın bölgədəki maraqlarına cavab vermir. Hər necə olmasa, Kreml başçısı istəsəydi, Bakıdan İrəvana yollanar, məhz oradan Düşənbəyə gedərdi.

Təbii ki, Ermənistan səfərindən imtinanın motivi komandasını qərbyönlü kadrlardan quran Nikol Paşinyanın Rusiya ilə Qərb arasında "haça-paça" durumda qalması ilə, daha dəqiqi, Moskvanın ona inanmaması ilə birbaşa bağlıdır. Artıq bir dəfə yazdığımız kimi, yeni erməni hökuməti can atır ki, onun bir "əli"ndən Rusiya, o birindən də Qərb tutsun. Bu isə mümkünsüzdür. İndiki sərt regional və qlobal geosiyasi şərtlər, getdikcə daha da qəlizləşən Rusiya-Qərb (ABŞ), İran-ABŞ münasibətləri bunu tamamilə istisna edir.

Kreml sözsüz ki, Paşinyanın "iki stul" oyununu əla başa düşür və diqqətlə müşahidə edir. Ancaq bu siyasət uzun da sürə bilməz. Ya Ermənistan həqiqətən Rusiyanın ağuşundan çıxıb Gürcüstan kimi birmənalı qərbyönlü kurs götürməlidir, ya balanslı siyasət yürüdən Azərbaycan kimi Rusiya və Qərblə bərabər məsafədə dayanmalı, ya da indiki vassal statusu ilə barışmalıdır. 1-ci və 2-ci variantda İrəvan Kremlin layihələri olan KTMT və Avrasiya Birliyindən uzaqlaşmalı olacaq.

Paşinyan iqtidarı buna qadirdirmi, onun Gürcüstan və ya Azərbaycan yolu getməyə iradəsi çatarmı? Qısası, erməni populist baş nazir olduğu kimi görünə və ya göründüyü kimi ola bilərmi? Əsas da budur.

Vəziyyətin təhlili göstərir ki, xeyr, mümkün deyil. Həm də o səbəbə ki, Paşinyan hər iki variantda Azərbaycanın qanuni ərazisi olan Dağlıq Qarabağdan vaz keçməli olacaq. Ya xoşluqla, ya da mini-müharibə nəticəsində. Bunu da Paşinyan bilir. O üzdən "məxməri inqilab" zamanı öz xalqına verdiyi şirin vədləri hələ uzun müddət tuta bilməyəcək, ermənilərə daha çox inqilabın acı "meyvələrini" dadızdırmalı olacaq.

*****

Vəziyyəti erməni ekspert cameəsində də anlamağa başlayıblar.

"Görünür, biz ona hazır olmalıyıq ki, İrəvanın siyasətindən narazı olan Moskva Paşinyanı Rusiyaya münasibətdə daha sözəbaxan eləmək üçün bir sıra tədbirlər hazırlayır". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə qərbyönlü erməni portallarından olan armenianreport.com-dakı məqalədə deyilir.

Məqalədə daha sonra bildirilir: "Biz vətəndaşlarımızın narazılığını yaxşı anlayırıq. Axı başa çatmaqda olan həftə elə hadisələr yaşandı ki, bizi həm məyus, həm də narahat etməyə bilməz. Məsələn, Moskvada və İrəvanda fikirlər yayılırdı ki, Rusiya prezidenti bu həftə bizim regiona, daha doğrusu, Azərbaycana və Ermənistana baş çəkəcək. Ancaq nədənsə Putin Ermənistana gəlməklə bağlı fikrini dəyişdi. Bununla belə, bu, ona Azərbaycana getməyə mane olmadı. Kimsə etiraz edib deyə bilər ki, nə olsun, axı cəmi bir neçə gün qabaq o, Paşinyanla Putin Soçidə görüşmüşdü. Ancaq ondan bir neçə qabaq Putin Əliyevi də qəbul eləmişdi! O zaman nədən Putin təzədən Əliyevlə görüşməyə getdi, Paşinyanı və İrəvanı isə iqnor elədi?"

Yazı müəllifi ardınca yaranmış durumdan çıxış edərək "Putinlə İlham Əliyevin Ermənistana hansısa növbəti pisliyi eləməyə hazırlaşdığını" yazıb. "Bu - tamamilə aydındır. Əks halda onlar niyə belə tez-tez görüşsünlər ki?.."

*****

**Ermənilərin təlaşı anlaşılandır. Düşmən tərəf Moskvanın "dobrosu" ilə Qarabağda müvəqqəti də olsa müharibənin fitilinin çəkiləcəyindən ehtiyatlanır. Bu isə hər şey qırağa, inqilabi hökumətin sonunu ildırım sürətilə yaxınlaşdırardı...**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**



# Putin gələn ay da Azərbaycana gələcək

## Fəzail Ağamalı: "Rusiya gözlərini və qulaqlarını bağlasa, Azərbaycan işğal altındakı torpaqlarımızı azad edər"

## Elxan Şahinoğlu: "Putin Ermənistanın baş naziri Paşinyana tənqidi münasibət bəsləsə də..."

**Rusiya prezidenti Vladimir Putinin sentyabrın 27-də Bakıya qısamüddətli işgüzar səfər etməsi gündəmin ən çox müzakirə olunan mövzusudur. Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündən cəmi 26 gün sonra Putinin Bakıya gəlişinin gerçək məqsədləri barədə ən müxtəlif versiyalar var.**

Xatırladaq ki, Soçi görüşündə tərəflər qarşılıqlı əməkdaşlığın inkişafını stimulaşdıran və yeni imkanlar yaradan 16 sənəd imzalamışdılar. Bakıda isə prezidentlər Milli Gimnastika Arenasında keçirilən cüdo üzrə dünya çempionatının yarışlarına baxdılar. Günün ikinci yarısında isə dövlət başçıları Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimində iştirak etdilər. V.Putinin öz çıxışında iki ölkə arasında münasibətlərin xeyirxah qonşuluq və qarşılıqlı hörmət üzərində qurulduğunu deməklə yanaşı, Azərbaycanın rolunu kifayət qədər yüksək qiymətləndirdi. Bildirdi ki, iki ölkə liderlərinin sentyabrın 1-də Soçidə imzaladığı sənədlər dövlətlərarası əlaqələrin sonrakı quruculuğu üçün əlavə baza yaradır. Öz növbəsində Azərbaycan prezidenti İlham Əliyev həmkarı ilə təkbətək görüşdüyünü bildirib. Əlavə edib ki, Rusiya prezidentinin səfəri xüsusi xarakter daşıyır. "Rusiya bizim üçün münasibətlərimizin ən yüksək səviyyədə olduğu çox mühüm və dəyərli tərəfdaş, dost və qonşudur. Düşünürəm ki, gələcək illərdə biz əməkdaşlığımızı yalnız inkişaf etdirmək, ölkələrimizin biznes qurumları üçün daha yaxşı şərait yaratmaq və bütün istiqamətlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək yolu ilə gedəcəyik"-prezident Əliyev deyib.

Rusiya prezidenti isə deyib ki, bu yaxınlarda Soçidə görüşsələr də, münasibətlərin yüksək səviyyəsini və həcmini nəzərə alaraq, həmişə danışmağa sözləri var. Budəfəki səfərin Azərbaycan-Rusiya münasibətlərinə hansı töhfələri verəcəyi, Azərbaycanın ən böyük probleminin həllində - Qarabağın azadlığında nə kimi rol oynayacağı əsas suallardandır. Putinin Azərbaycana səfəri və verdiyi açıqlamalar nə ilə yadda qaldı? Bu münasibətlər ölkəmiz üçün nələr vəd edir?

**AVP sədri, deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a bildirdi ki, gərgin iş rejimində çalışan Putinin Azərbaycana qısamüddətli də olsa, səfər etməsi və Azərbaycan prezidenti ilə görüşü, apardığı danışıqlar ciddi hadisədir: "O danışıqların detalları bizə tam bəlli deyil. Ümidvaram ki, bir çox məsələlər ikitərəfli müzakirələrdə bir daha müzakirə olunub. Çünki bu cür görüşlər heç vaxt təsadüfi xarakter daşımır. Nəzərə alsaq ki, bir müddət öncə Azərbaycan və Rusiya liderləri Soçidə görüşmüşdü, bir çox sahələri əhatə edən sənədlər imzalanmışdı. Xüsusən də Putinin Azərbaycan prezidentini yola salarkən cənab İlham Əliyevlə əlavə bir saat danışıqlar aparması ciddi məqamlardan xəbər verir. Düşənbə səfəri öncəsi Putinin Bakıya gəlməsi onun Azərbaycana münasibətinin ifadəsi kimi də qiymətləndirilməlidir. Eyni zamanda böyük bir auditoriyada hər iki prezidentin birgə çıxışı, qarşılıqlı dostluq və inama söykənmiş bəyanatların verilməsi, xüsusilə də Putinin "Azərbaycanla əməkdaşlıq son dərəcə əhəmiyyətlidir, vacibdir" kimi fikirləri, eyni zamanda prezidenti İlham Əliyevin də Rusiya-Azərbaycan münasibətlərinin inkişafına hədəflənən fikirləri heç şübhəsiz ki, xüsusi önəm kəsb edir".

**F.Ağamalı bildirdi ki, Qarabağ məsələsinin həlli xeyli dərəcədə Rusiyadan asılıdır**: "Rusiya, necə deyərlər, gözlərini və qulaqlarını bağlasa, üzünü qısa zaman kəsiyində başqa bir səmtə çevirsə, Azərbaycan ordusu özünün bütün imkanları, hərbi potensialı ilə işğal altındakı torpaqlarımızı azad edə bilər. Sadəcə, Rusiyanın Azərbaycanın atdığı addımlara təmkinli yanaşması, neytrallıq nümayiş etdirməsi kifayətdir. Mən əminəm ki, bu məsələ detallaşdırılır, konkretləşdirilir. Əgər buna doğru addımlar atılarsa, Rusiya və Azərbaycan arasındakı münasibətlər həqiqətən yüksək səviyyədə, hətta göründüyündən daha yüksək səviyyədə inkişaf edə bilər".

**Deputat bildirdi ki, Azərbaycan faktiki olaraq keçən zaman kəsiyində Rusiyaya qarşı münasibətlərdə etibarlı müttəfiq, etibarlı qonşu və etibarlı dövlət imicini qazanıb:** "Məncə, Rusiya bunu qiymətləndirməlidir. Ermənistanda vəziyyət tamamilə fərqlidir. Ermənilər həmişə güclünün yanında olublar və həmin güclü zəifləyən anda başqa bir gücün yanına transfer edirlər, tarix bunu dəfələrlə sübut edib. İndi də Ermənistanın baş naziri məhz bu xətti götürüb. O, Rusiyanın bu çətin vəziyyətində ona olan müttəfiqlik borcunu yerinə yetirmək əvəzinə, əslində müttəfiqliyə xəyanət edərək yerini dəyişməyə, Qərb və ABŞ-la münasibətlərini istiləşdirməyə çalışır. Buna nail olub-olmayacağı bəlli deyil. Məncə, bu, mümkün deyil. Çünki Paşinyan həm Rusiya, həm də Qərblə yaxşı olmağa çalışır. Ermənistanın balanslaşdırılmış siyasəti hədsiz dərəcədə gecikmiş siyasətdir. Çünki Rusiya Ermənistanda tamamilə oturmuş vəziyyətdədir və bu ölkəni heç kimə güzəştə getmək fikrincə deyil. Ona görə də belə bir durumda Rusiya prezidentinin işğal edilmiş torpaqların azad edilməsi ilə bağlı atacağı addım əlbəttə, onun tərcümeyi-halına "tarixdə münaqişələri sülh yolu ilə həll etməyi bacaran" müsbət imicini də əlavə edəcək. Məncə, bu, Putin üçün son dərəcədə əhəmiyyətli bir missiya olardı. Baxaq, görək gümanlarımız nə dərəcədə özünü doğruldacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** öncə Putinin Azərbaycana sentyabrın 25-də gəlməli olduğu halda idi, iki gün sonra səfər etməsinə diqqət çəkdi: "Bundan başqa, səfərin 3 gün davam edəcəyi bildirilmişdi. Ancaq Putinin Azərbaycana səfəri bir gündən də az çəkdi. Bu, ondan xəbər verir ki, Putinin Azərbaycana səfəri simvolik - əvvəlcədən planlaşdırılan toplantıda iştirak xarakteri daşıyırdı. Buna baxmayaraq, Rusiya prezidenti çalışır ki, heç olmasa ildə bir dəfə Azərbaycana gəlsin. Statistika da bundan xəbər verir. Putin son 5 ildə 4-cü dəfədir Azərbaycana gəlir".

**E.Şahinoğlu bildirdi ki, V.Putin gələn ay yenə Bakıya gələcək. Ekspertin sözlərinə görə, Rusiya prezidenti Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti Humanitar Forumda iştirak edəcək:** "Azərbaycanla əməkdaşlıq Rusiya üçün çox vacibdir" - bu, Putinin Bakıda dediyi əsas fikir oldu. Putinin Azərbaycana səfəri sırf iqtisadi əməkdaşlıqla bağlı idi. O, IX Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak etmək üçün Bakıya gəlmişdi. Rusiya prezidenti iki ölkə arasındakı iqtisadi və ticarət əməkdaşlığından razıdır. Bu baxımdan mövcud vəziyyəti əks etdirəm faktorları sadalaya bilərik: Azərbaycan Rusiya ilə birgə "Şimal-Cənub" nəqliyyat dəhlizini reallaşdırır. Putinin sözlərinə görə, bu yol Avropa və Asiyanı bir-birinə daha da yaxınlaşdıracaq; Samur çayı üzərindən Azərbaycanı Dağıstanla birləşdirəcək körpünün tikintisi ilə bağlı razılıq var; Xəzər dənizində Azərbaycan və Rusiya limanlarını birləşdirəcək kruiz səyahətləri həyata keçiriləcək; "Rosneft" və SOCAR "Qoşadaş" neft-qaz yatağının kəşfiyyatına və mənimsənilməsinə başlayacaq; Azərbaycan milli aviaşirkəti Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən çox reys həyata keçirir; Rusiyadan Azərbaycana gələn turistlərin sayı artır - 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib; Rusiya ilə əməkdaşlıq sayəsində Azərbaycanda artıq "KamAZ", "Ural" avtomobilləri buraxılır. Rusiyanın 20-yə yaxın subyektinin Azərbaycanla müvafiq razılaşmaları var. Rusiyanın regionlarının Azərbaycanda ticarət nümayəndəlikləri açılır".

**Politoloq Putin Bakıda xüsusi vurğuladığı digər məqama da diqqət çəkdi:** "Dedi ki, rus dilinin Azərbaycanda dövlət səviyyəsində dəstək almasından məmnundur. Azərbaycanda 300-dən artıq məktəbin rus dilində tədris verdiyini xatırladan Putinin bu cümləsi də diqqətçəkici idi: "Ən əsas dəstək insanların ürəyində və beyinlərindədir". Yəni Putin demək istədi ki, Azərbaycan vətəndaşları rus dilində tədrisə dəstək verirlər. Əlbəttə, Rusiya və prezidenti üçün bu böyük uğurdur, ölkəsinin dili başqa ölkədə geniş təbliğ olunur, ancaq bunun Azərbaycan üçün nə qədər uğur olduğu düşündürücüdür".

**"Atlas" rəhbəri bütün bunlarla yanaşı, Putinin Bakıda Qarabağdan danışmadığını da vurğuladı:** "Bəlkə də Putin Azərbaycan prezidenti İlham Əliyevlə qapalı görüşdə bu məsələyə toxundu. Ancaq bütün hallarda Vladimir Putinin Qarabağ münaqişəsinin həllində maraqlı olduğunu söyləmək çətindir. Rusiya prezidenti Azərbaycanla iqtisadi-ticarət əməkdaşlığını genişləndirmək, birgə layihələr reallaşdırmaq və Azərbaycanın Rusiyadan daha çox hərbi texnika almasını istəyir. Ancaq Putin Qarabağ haqqında danışmaq istəmir. Çünki Putin Ermənistanın hazırkı baş naziri Nikol Paşinyana tənqidi münasibət bəsləsə də, Qarabağ münaqişəsinin həllində Ermənistanın maraqları əleyhinə addım atmaq istəmir. Rusiya ilə iqtisadi, ticari və hərbi əməkdaşlıq Azərbaycan üçün faydalıdır. Rusiya Azərbaycanın kənd təsərrüfatı malları üçün ən münbit bazardır. Buna baxmayaraq, Rusiyanın işğalçı Ermənistanı silahlandırması və Dağlıq Qarabağ münaqişəsinin həllinə maraq göstərməməsi Azərbaycan cəmiyyətində mənfi qarşılanır".

**Pənah Hüseynin münasibəti qısa və konkret oldu:** "Mənim bu səfərdən gözləntim yox idi. Hələlik məlumat da çox məhduddur. Ona görə də bir dəyərləndirmə aparmağa çətinlik çəkirəm".

**Xəbər verildiyi kimi, Putinin Bakı səfəri və eyni zamanda İrəvana getməməsi Ermənistanda pərtik yaradıb. Ermənilər Putinin köməkçisinin onları aşağılamasından qəzəbləniblər. Rusiya lideri isə İrəvana səfər etməyə tələsməməklə Paşinyan hökumətinə dərs vermək istəyir. Üstəlik, Rusiya lideri oktyabrda növbəti dəfə Bakıda olacaq...**

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 204 (7093) 29 sentyabr 2018

# Tenderlərdə şəffaflıq və korrupsiya problemi

**Azərbaycanda hər il dövlət vəsaitləri hesabına yüz milyonlarla manatlıq alqı-satqılar həyata keçirilir. Demək olar ki, hər gün rəsmi mətbuatda müxtəlif dövlət qurumlarının alqı-satqılara dair elanlarına rast gəlmək olur. Əsasən tenderlər yolu ilə baş tutan dövlət satınalmaları cəmiyyətin diqqətində olan məsələlərdən biridir. İnsanlar büdcə vəsaitləri hesabına həyata keçirilən alqı-satqılar barədə hərtərəfli məlumat əldə etməyə, bu istiqamətə yönəldilən hər manatın taleyindən xəbərdar olmağa çalışırlar.**

## **Ekspert:** "Tenderlərin elan olunmasından onların nəticələrinin açıqlanmasınadək pozuntular kifayət qədərdir"

Son üç ildə neft gəlirlərinin azalması səbəbindən dövlət investisiyalarına yönəldilən vəsaitlərin həcmi bir qədər azalsa da, neftin dünya bazar qiymətinin yüksəlməsi dövlət xərcləmələrinin yenidə artırılacağından xəbər verir. Bu isə dövlət satınalmalarına nəzarətin təmin olunmasını, bu sahədə şəffaflığın gücləndirilməsini zəruri edir. Bu zərurətdən irəli gələrək Azərbaycanda Hesablama Palatası haqqında yeni qanun qəbul edilib, qurumun dövlət xərcləmələrinə nəzarət sahəsində səlahiyyətləri genişləndirilib.

Xatırladaq ki, 2016-cı ilin yanvarında Prezident İlham Əliyev Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv edilməsi haqqında fərman imzalayıb.Fərmanla Satınalmalar üzrə Dövlət Agentliyinin vəzifə və funksiyaları, habelə istifadəsində olan dövlət əmlakı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə verilib.

Qeyd edək ki, dövlət satınalmalarında şəffaflığın təmin olunması, effektivliyin artırılması istiqamətində bir sıra addımlar atılsa da, bu sahədəki vəziyyət heç də hamını qane etmir. **Araşdırmaçı-jurnalist Hafiz Babalı** deyir ki, Satınalmalar üzrə Dövlət Agentliyi ləğv olunandan sonra dövlət vəsaitləri hesabına satınalmalar sahəsində vəziyyətin yaxşıya doğru dəyişmədiyini iddia etmək haqsızlıq olardı: "Amma bu işdə dövlət satınalmalarına dövlət nəzarətini həyata keçirən İqtisadiyyat Nazirliyinin müvafiq qurumunun iştirakı yoxdur. Əksinə, yeni nəzarət qurumu dövlət vəsaitlərin qənaətsiz və qeyri-səmərəli xərcləmə üsulu olan birbaşa müqavilələrin bağlanmasına yaşıl işiq yandırıb. Heç də təsadüfi deyil ki, satınalmalar sahəsində qanunvericiliyin sərtləşdirilməsinə baxmayaraq, qurum bir dəfə də olsun pozuntu aşkar etməyib, yaxud pozuntu törətmiş qurumlara qarşı tədbir görməyib. Hərçənd tenderlərin elan olunmasından tutmuş onların nəticələrinin açıqlanmasınadək pozuntular kifayət qədərdir. Hətta nazirliyin qurumu 2017-ci ilə dair satınalma müqavilələri üzrə məlumatın tam şəkildə açıqlanmasına lüzum görməyib".




**H.Babalının sözlərinə görə, tender və digər satınalma metodları ilə bağlı müsbət meyllər var:** "Bu sahədə inzibati və cinayət qanunvericiliyinin sərtləşdirilməsi, Hesablama Palatasının apardığı təhlili yoxlamalar və KİV-in bu sahədə olan pozuntuları aşkara çıxaran araşdırmalarını xüsusi qeyd etmək lazımdır. Lakin bunlara rəğmən, keçirilən tenderlərdə şəffaflıq elementar tələblərə cavab vermir. Tenderlərin predmeti qanunun tələbinə uyğun şəkildə açıqlanmır, iştirakçı və iddiaçıların adları gizli saxlanılır, media bu prosesin ilkin mərhələsinin işıqlandırılmasından kənarda saxlanılır, ixtisasqabağı seçim prosesi total qanun pozuntusuna yol verməklə aparılır, tender təkliflərinin təminatı ilə bağlı ciddi pozuntulara yol verilir, nəticələr yarımçıq açıqlanır, yaxud ümumiyyətlə gizli saxlanılır".

Müsahibimiz qeyd edir ki, dövlət xərcləmələri sahəsində şəffaflığı artırmaq üçün "Dövlət satınalmaları haqqında" yeni qanunun qəbulu sürətləndirilməlidir: "Hazırda bütün dünya kənar subyektiv müdaxilələri istisna edən elektron satınalmalar metodundan istifadə edir. Biz isə Dünya Bankının texniki yardımlarına rəğmən bundan yayınırıq. Məqsəd, əlbəttə ki, bu sahədə olan korrupsiyanı himayə etməkdir. Buna görə də hesab edirəm ki, 2019-cu ildən etibarən elektron satınalmalara keçid başlamalı və bu, il ərzində tamamlanmalıdır. Nəzarət orqanının müstəqilliyi təmin olunmalıdır. Dövlət satınalmalarına ictimai nəzarət dedikdə əsasən parlament nəzarəti başa düşülür. Bu işi Hesablama Palatası həyata keçirir. Lakin Palatanın nəzarəti də səthidir və bu sahədə olan kriminal və korrupsion halları aşkara çıxarmağa yönəldilməyib. Maliyyə Nazirliyi isə bu sahədə olan pozuntulara göz yummaqla məşğuldur".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# "Neftin qiymətin 60-70 dollar arasında olması daha məqbuldur"

## **İlham Şaban:** "Yüksək qiymət tələbatı azaldacaq"

**"Bloomberg" analitiklərindən sonra Fransanın neft nəhəngi olan "Total" şirkətinin rəhbəri də neftin dünya bazar qiymətinin 100 dollara çata biləcəyini deyib. Şirkətin prezidenti patrik Piyanne "Bloomberg" TV-yə müsahibəsində bunun heç də yaxşı hal olmadığını qeyd edib: "Mən bunun dünya iqtisadiyyatı, elə neft sənayesi üçün də yaxşı xəbər olduğuna əmin deyiləm. Bu gün dünyada baş verən hadisələrdə neftin qiymətinə təsir edən bir neçə mühüm element var ki, onlar arasında mən təklif çatışmazlığı, çatdırılmadakı fasiələrdir. İran bazardan çıxır, Venesuelada, Liviyada hasilat azalır. Bu, hətta OPEK-ə də aiddir - onlar neft hasilatını artırmaq barədə qərar qəbul etdilər, lakin artım elə də yüksək olmadı".**

"Total" prezidentinin sözlərinə görə, qiymətin artması neftdən istifadəni azaldacaq, bu isə tələbatın düşməsi və qiymətlərin kəskin enişi ilə nəticələnə bilər.

"Report"un analitik qrupu isə bildirir ki, dünya bazarındakı bahalaşma neftə tələbatın artması ilə yanaşı digər dolayı amillərlə də bağlıdır: "Onlardan biri Neft İxrac Edən Ölkələr Birliyinin (OPEC) ötən həftə Əlcəzairdə keçirilmiş toplantısında qurumun açıqladığı proqnozdur.

Təşkilatın baş katibi Mohammad Sanusi Barkindo bildirib ki, bu ilin sonundan başlayaraq bütün növ enerjidaşıyıcılarına tələbat artacaq. Bu baxımdan neft xüsusi əhəmiyyət kəsb edəcək. 2040-cı ilə qədəq "qara qızıl"a gündəlik tələbat indiki 32 milyon bareldən 112 milyon barelə yüksələcək ki, bunun da 95 faizini inkişaf etməkdə olan ölkələr təmin edəcək.

Hesablamalara görə, neftə artacaq tələbatın ödənilməsi üçün 11 trilyon dollar məbləğində investisiya qoyuluşuna ehtiyac olacaq. Rəqəmin böyük olması bazar iştirakçılarında belə bir fikir formalaşdırır ki, tələb və təklif arasında balansı qorumaq elə də asan olmayacaq. Yəni neft istehsalçıları (həm də ixracatçıları) bu biznesə lazımi qədər pul qoymaq iqtidarında olmaya da bilərlər. Bu isə neftin bahalaşmasını stimullaşdırır".



Qrup hesab edir ki, ilin sonuna qədər neftin 1 barelinin qiyməti 100 dollara çata, hətta bu həddi keçə də bilər. Bununla belə, qiymətin formalaşmasındn OPEC-in bu il noyabrın 11-də BƏƏ-nin paytaxtı Əbu-Dabidə keçiriləcək növbəti iclasının nəticəsi də rol oynayacaq.

**Neft sahəsi üzrə mütəxəssis, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** da hesab edir ki, neftin qiymətinin 100 dolladək yüksəlməsi heç də müsbət hal deyil: "Bu barədə "Total" prezidentinin dedikləri ciddi maraq doğurur. O, haqlı olaraq qeyd edir ki, baha qiymət tələbatın azalmasına, həmçinin dünya ölkələrinin alternativ enerjiyə keçidlə bağlı fəaliyyətlərinin artmasına gətirib çıxaracaq. O cümlədən də dünya iqtisadiyyatında neftə olan tələbat azalacaq. Buna görə də qiymətin 60-70 dollar arasında olması daha məqbuldur".

**İ.Şabanın sözlərinə görə, bazara təsir edən əsas amillər İran neftinin bazardan çıxması, Venesuelada hasilatın azalmasıdır. ABŞ-Çin ticarət müharibəsinin isə bazara təsiri çox cüzi ola bilər:** "Beynəlxalq mərkəzlər Çin iqtisadiyyatında 1-2 faizlik azalma ehtimal edirlər. Bu isə tələbatın ciddi azalmayacağını göstərir".

**Ekspertin fikrincə, neft istehsal edən ölkələrin əksəriyyəti aşağı qiymətlər şəraitində əvvəllər əldə etdikləri vəsaitlərdən səmərəli istifadə edib iqtisadiyyatlarını diversifikasiya etmədilər**: "Bu baxımdan, yenidən yüksələn qiymətlərdən də nəsə əldə olunacağı real görünmür".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**



# Xəzərdə balıq ovu kvotası açıqlandı

**Bu ilin yanvar ayından indiyə kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən Xəzər dənizinin Azərbaycana aid hissəsində və daxili su hövzələrində 10 hüquqi və 126 fiziki şəxs üçün 1087 ton kilkə, 88,7 ton siyənək və 397,1 ton axçalı balıqların ovuna kvota ayrılıb və balıqovlama biletləri verilib.**

Trend-in məlumatına görə, bunu **Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisi Suğra İbrahimli** deyib.

Onun sözlərinə görə, bu müddətdə sənədləri qaydasında olmadığı üçün 2 fiziki şəxsə etiraz olunub.

S.İbrahimli əlavə edib ki, balıq və digər su bioresurslarının sənaye ovuna kvota və balıqovlama biletinin alınması balıqçılıq haqqında qanunvericiliklə tənzimlənir. Qanunvericiliyə əsasən balıq və digər su bioresurslarının sənaye ovu üçün balıqovlama bileti ödənişlidir və 1 il müddətinə verilir:

"Nazirlər Kabinetinin 02.06.2017-ci il tarixli 243 №-li Qərarı ilə təsdiq edilmiş "Balıq və digər su bioresursları ovunun Qaydaları"na görə balıq və digər su bioresurslarının sənaye ovuna kvota ayrılması və balıqovlama biletinin verilməsi proseduru 2 mərhələdən ibarətdir. 1-ci mərhələdə kvota alınması üçün balıqçılıqla məşğul olan hüquqi və fiziki şəxslər ərizə formasını doldurmalı, ov ediləcək yerləri göstərməli, kvotanın balıq növləri üzrə bölgüsünü və ov alətlərinin briqadalar üzrə bölgüsünü göstərməlidir. Eyni zamanda mülkiyyətində və icarəsində olan gəmi və ya qayığa istifadə hüquqlarını təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti əlavə edilir və Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinə təqdim olunur. Kvota ayrılmasına razılıq verildikdən sonra kvotanın dəyəri departamentin bank hesabına ödənilir. Ödənişin məbləği hər balıq növü üzrə ayrıca hesablanır. Xarici vətəndaşlar üçün məbləğ 2 dəfə artıqdır".

**Nazirlik rəsmisi qeyd edib ki, 2-ci mərhələdə artıq kvotanı almış balıqçı mütləq qaydada ETSN-in rəsmi saytının elektron xidmətlər bölməsindən "Sənaye balıq ovuna balıqovlama biletlərinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" bəndində göstərilən ərizə formasını doldurur, tələb olunan sənədləri əlavə edir və 5 gün müddətində balıqovlama biletini ala bilir:** "Əgər hər hansı balıqçı balıqovlama biletinin alınması ilə bağlı çətinliklə rastlaşarsa, departamentə və ya nazirliyin 168 nömrəli "qaynar xətt"inə müraciət edə bilər. Bütün prosedur şəffaf şəkildə elektron qaydada həyata keçirilir. Hazırda balıqovlama bileti almaq istəyən şəxslər üçün heç bir maneə yoxdur".

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 204(7093) 29 sentyabr 2018

**Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Azərbaycanın və işğalçı ölkənin xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyan arasında daha bir görüş reallaşdı. Bu dəfə Nyu-Yorkda, BMT Baş Məclisinin 73-cü sessiyası çərçivəsində və yenə də ATƏT-in Minsk Qrupunun üç həmsədrinin təşəbbüsü ilə XİN başçıları bir araya gəldilər.**






# Amerika görüşləri də sülhü yaxınlaşdırmadı - müharibənin "donu" açılır

## Bakı prinsipial, İrəvan təxribatçı mövqeyini saxlayır; vasitəçilər isə işğal altındakı ərazilərə qanunsuz səfərləri və təlimləri qınamaq əvəzinə hər iki tərəfə xəbərdarlıq edir; yerli və əcnəbi politoloqlardan maraqlı şərhlər...

**Maraqlıdır ki, bundan əvvəlki görüş kimi sonuncu təmas da saatlarla sürüb, 3 saata yaxın çəkib.** Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) bildirilib. Bununla belə, hansısa anlaşma əldə olunmayıb. Sülh danışıqlarında yenə kiçicik irəliləyiş belə, qeydə alınmayıb. Həmçinin iki ölkə rəhbərlərinin görüşünü təşkili yönündə ilkin razılığın əldə edilməsi mümkün olmayıb. Yalnız ilin sonunadək XİN rəhbərləri arasında daha bir görüşün keçirilməsi haqda anlaşma əldə olunub.

Görüş haqda danışan Elmar Məmmədyarov deyib ki, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, o cümlədən, bölgədə "dayanıqlı sülhə" nail olmağın yolları barədə müzakirə aparıblar. Azərbaycan XİN başçısı müzakirələri "maraqlı və mühüm fikir mübadiləsi" kimi qiymətləndirib. "Biz danışıqların həmsədrlərin bölgəyə səfəri də daxil olmaqla gələn ay davam etdirilməsinə razılaşdıq", - deyə o, əlavə edib.

Ötən saylarımızda qeyd etdiyimiz kimi, əslində bu görüşdən də pozitiv nəticə gözlənilmirdi. Çünki Ermənistanın indiki iqtidarını hazırda Dağlıq Qarabağ məsələsindən daha çox, növbədənkənar seçkilər və bu seçkilərdə qələbə maraqlandırır. Qarabağ ixtilafının həlli isə Azərbaycan torpaqlarının heç olmasa bir qisminin qaytarılması deməkdir ki, bunu da inqilabdan sonra baş nazir Nikol Paşinyanın populizmi sayəsində bir az da eyforik duruma düşən erməni toplumu qəbul eləmək gücündə deyil.

*****

Beləcə, ən azından işğalçı ölkədə yeni parlament formalaşanadək rəsmi İrəvanın Dağlıq Qarabağla bağlı mövqeyində konstruktivlik gözləməyə dəymir. Bu da öz növbəsində müharibə riskinin getdikcə artması deməkdir. Vəziyyəti ciddiyə alan Azərbaycan tərəfi sözsüz ki, əsas diqqəti öz silahlı qüvvələrinin döyüş potensialını artırmağa, hərbi parkını yeni-yeni müasir silah sistemləri hesabına zənginləşdirməyə davam edir.

Yeri gəlmişkən, srağagün Azərbaycanla Belarus arasında imzalanmış hökumətlərarası razılaşmaya əsasən 301 mm-lik "Polonez" əməliyyat-taktiki raket komplekslərinin daha bir partiyası ölkəmizə gətirilib. Bu barədə Müdafiə Nazirliyinin məlumatında deyilib. Azərbaycan təbii ki, bu qəbildən müasir silah komplekslərini vitrində saxlamaq üçün almır. Yeri gələndə düşmənə qarşı istifadə edilir. Bu günlərdə cəbhə xəttində işğalçı qüvvələrə verilən növbəti layiqli cavab buna sübutdur.

*****

"Hazırkı Ermənistan hökuməti və erməni əsgərləri baş nazir Nikol Paşinyan və onun populist çıxışlarının əsirinə çevrilib". Bu sözləri axar.az-a qoşunların qarşıdurma xəttindəki son vəziyyətlə bağlı açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. O bildirib ki, son bir həftə ərzində Azərbaycan Ordusunun bölmələri bütün istiqamətlərdə düşmənin 5 hərbi qulluqçusunu məhv edib, bir neçə əsgəri isə ağır yaralayıb.

"Həmişəki kimi, qarşı tərəf yalnız Ermənistandan olan 3 çağırışçının adını rəsmi olaraq bəyan edib. Digər 2 nəfər isə Qarabağdan hərbi xidmətə çağırıldığı üçün onların adları gizlədilib. Azərbaycan Ordusunun əsgərləri Paşinyan və onun kimi digər cinayətkarların səsləndirdiyi sərsəm bəyanatlara cavab verir və verməyə də davam edəcək", - deyə hərbi ekspert qeyd edib.

Polkovnik vurğulayıb ki, bunlar hamısı Azərbaycan Ordusunun gücünü göstərir: "Bu, ordumuzun işğal altında olan torpaqlarımızı azad etməyə hazır olduğunu bir daha sübut edir. Əminəm ki, bundan sonra Paşinyan və onun kimilər nə qədər ki, sərsəm bəyanatlar səsləndirəcək, o vaxta qədər də təmas xəttindən erməni əsgərlərinin leşini yığmaqla məşğul olacaqlar".

*****

**Görünür, elə bu xofun göstəricisidir ki, Ermənistan rəhbərliyindəki daha bir şəxs işğal altındakı Azərbaycan ərazilərinə getməyə hazırlaşır.** Belə ki, Musavat.com-un erməni mediasına istinadən verdiyi xəbərə görə, Ermənistan parlamentinin sədri Aro Babloyan sentyabrın 28-də qanunsuz olaraq Dağlıq Qarabağa səfər edəcək. Onun Qarabağ separatçılarının başçısı Bako Saakyanla, həmçinin oyuncaq qurumun "parlament sədri" Aşot Qulyanla görüşü planlaşdırılır.

Xatırladaq ki, bu ay baş nazir Nikol Paşinyan, həmçinin müdafiə və xarici işlər nazirləri Azərbaycan ərazilərinə "arxa qapı"dan gəliblər. Təəssüf ki, düşmən tərəfin bu təxribatçı, sülh prosesini daha da qəlizə salan bu cür hərəkətlərinə, o sırada işğal altındakı torpaqlarımızda vaxtaşırı hərbi təlimlər keçirməsinə Minsk Qrupu həmsədrlərinin qınayıcı reaksiyasının şahidi olmuruq. Əvəzində onlar yenə XİN başçılarının Nyu-York görüşü ilə bağlı növbəti şablon bəyanat yayıblar.

Bəyanatda həmsədrlərin görüş zamanı tərəflərdən narahatçılıq doğuran açıqlamalar və insidentlərlə bağlı izahat istədikləri bildirilir. Həmsədrlər insan ölümləri hallarının davam etməsindən dərin təəssüf hissi keçirdiklərini vurğulayıblar. Onlar xarici işlər nazirlərini gərginləşmənin təhlükəli olması barədə xəbərdar ediblər, tərəfləri pozitiv mühitin formalaşmasında konstruktiv iştiraka və aqressiv ritorikadan çəkinməyə çağırıblar. Onu da qeyd ediblər ki, hərtərəfli nizamlanma bütün tərəflərdən güzəştlər tələb edəcək.

Qəribədir, vasitəçilər işğal altındakı ərazilərə qanunsuz səfərləri və orada vaxtaşırı keçirilən qanunsuz təlimləri qınamaq əvəzinə, hər iki tərəfə xəbərdarlıq edirlər, "balans" saxlamağa çalışırlar. Görəsən, ərazisinin 20%-i işğal altında olan Azərbaycan Ermənistana nəyi güzəştə getməlidir - Dağlıq Qarabağı?

*****

Sözsüz ki, məsələdə Rusiya səmimi şəkildə hərəkətə keçməyincə, sülh prosesində dönüş olmayacaq. Bu xüsusda münaqişə tərəfləri arasında son təmaslar və Rusiya amilinin rolundan danışan politoloq Elçin Mirzəbəyli hesab edir ki, hazırda Kremlin Qarabağ problemi ilə bağlı fərqli yanaşması var: "Bəzi məqamlarda Rusiyanın Qarabağ münaqişəsinin həllində maraqlı olduğunu, Minsk Qrupunun buna mane olduğu iddiasını önə çəkirlər. Başqa tərəfdən isə Rusiyanın "Qarabağ kartı"nı əldən vermək istəmədiyini bildirirlər. İndiki məqamda ikinci faktor daha çox müzakirə mövzusudur. Buna görə də Rusiyanın konfliktlə bağlı birmənalı mövqeyi yoxdur. Baxmayaraq ki, Rusiya hakimiyyətinə yaxın siyasi institutlar tərəfindən də Qarabağ ətrafındakı 7 rayondan 5-nin Azərbaycana qaytarılması ilə bağlı müxtəlif fikirlər səsləndirilir, amma bunlar rəsmi mövqeyi ifadə etmir. Belə fikirlər, sadəcə, fərziyyələr və ehtimallar formasında irəli sürülür. Digər tərəfdən, Azərbaycan Dağlıq Qarabağa özünün ərazi bütövlüyündən kənarda status verməyəcəyini bəyan edir, bu isə ölkənin qəti mövqeyini ifadə edir. Bu baxımdan da istər Rusiya prezidentinin səfəri, istər BMT Baş Assambleyasında baş verən proseslər, istərsə də mövcud geosiyasi şərtlər fonunda Dağlıq Qarabağ münaqişəsinin tezliklə danışıqlar yolu ilə həll ediləcəyi mümkünsüz görünür".

Politoloq yaranmış vəziyyətə qarşı Azərbaycanın ən maksimal formada atdığı addımların olduğuna diqqət çəkərək deyib ki, Azərbaycan Ermənistanın işğalçılıq addımlarına cavab olaraq, öz Silahlı Qüvvələrini kifayət qədər gücləndirib: "Ölkədə keçirilən sonuncu müdafiə sərgisi Azərbaycanın potensialının ciddi şəkildə güclü olduğunu və ölkənin öz ərazilərini işğaldan azad etmək qüdrətində olduğunu nümayiş etdirdi. Qısa müddət ərzində Bakıda iki möhtəşəm hərbi paradın keçirilməsi də buna əlavə sübutdur", - deyə o qeyd edib.

*****

Öz növbəsində rusiyalı tanınmış ekspert Andrey Yepifantsev Dağlıq Qarabağ danışıqlarında Ermənistanın mövqeyinin ciddi şəkildə dəyişməkdə olduğunu düşünür. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, "Vestnik Kavkaza" portalına açıqlamasında deyib.

"Paşinyan bütün ölkələrə tələb qoyur ki, onlar Azərbaycana təzyiq göstərib onu güzəştlərə məcbur eləsin. Bu isə nə beynəlxalq anlaşmalara, nə də Minsk Qrupu çərçivəsindəki danışıqların ruhuna uyğundur. Gözləmək olar ki, Paşinyan incə və diplomatik şəkildə öz yerində oturdulanda İrəvanın mövqeyində hansısa korreksiya baş verəcək. Çünki onun tələblərinə razılıq - tərəflərdən bərabər uzaqlıqda olmaq praktikasından ciddi şəkildə çəkilərək İrəvanın mövqeyinə yuvarlanmaq demək olardı. Buna isə əsas yozdur", - deyə rusiyalı analitik əlavə edib.

Rusiyalı tanınmış telejurnalist və siyasi şərhçi Maksim Şevçenkoya görə, hazırda Paşinyanın Qarabağla bağlı mövqeyi Serj Sərkisyanın mövqeyindən heç nə ilə fərqlənmir: "Paşinyan da iddia edir ki, Qarabağ - müstəsna olaraq erməni dünyasının əzəli tərkib hissəsidir, bu torpaqlar ancaq erməni xalqınındır. Bu isə təbii ki, doğru deyil. Çünki Dağlıq Qarabağ orada kifayət qədər çoxdan yaşayan həm azərbaycanlılara, həm də ermənilərə məxsusdur. Hakimiyyət dəyişikliyindən sonra İrəvanın yanaşması zərrəcə dəyişməyib - "Qarabağı verməyəcəyik, vəssalam!.." Məncə, Ermənistan bu məsələdə anlaqlı mövqe tutmalı, mütləq Dağlıq Qarabağ ətrafındakı rayonları azad eləməli, köçkünlərin qayıdışı təmin olunmalı və bundan sonra Dağlıq Qarabağın statusu müzakirə edilməlidir".

**Əfsus ki, düşmən ölkə konstruktiv mövqeyə yaxınlaşmaq əvəzinə, ondan uzaqlaşmaqdadır. Bu isə tezliklə sülhün deyil, müharibənin "donu"nun açılmasına aparır.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT

N 204 (7093) 29 sentyabr 2018

**“İrşad Electronics” MMC-nin rəhbəri İrad Ağahüseyn oğlu Hacıyevin ölümü ilə bağlı müəmma davam edir. Yayılan məlumata görə, İrad Hacıyev özünə qəsd etmək üçün çoxlu sayda dərman içib. Onun meyitini yaşadığı evdə vannada aşkar ediblər. Vannanın kənarında isə intihar etmək üçün içdiyi iddia olunan dərman qutuları aşkarlanıb.**

# “İrşad Electronics” sahibinin müəmmalı ölümü yenidən gündəmdə

## Onun ölümü ilə telefon satışı bazarında rüsumların artırılması, qeydiyyat qiymətlərinin bahalaşması arasında əlaqə axtaranlar da var



Bakı Şəhər Prokurorluğu intihar faktını təsdiqləyib. Bildirilib ki, həqiqətən də İrad Ağahüseyn oğlu Hacıyev intihar edib. “İrad Ağahüseyn oğlu Hacıyevin ölümü ilə əlaqədar sentyabrın 14-də Cinayət Məcəlləsinin 125-ci (öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. İstintaq gedir” - deyə məlumatda qeyd olunub.

İ.Hacıyevin ölümündən sonra ən müxtəlif məlumatlar yayılıb, onun ölümü ilə telefon satışı bazarında rüsumların artırılması, qeydiyyat qiymətlərinin bahalaşması arasında əlaqə axtaranlar da var. Telefon bazarının inhisara alınması prosesi ilə İrad Hacıyevin ölümünü əlaqələndirənlər də az deyil. Belə iddialar var ki, telefon satışı bazarındakı qiymətlərin artırılması təklifi ilə İrad Hacıyev çıxış edib.

Bu məlumatların nə dərəcədə doğru olması və qiymətlərin artırılması ilə bağlı “Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün fikirlərini öyrəndik. Mərkəz direktoru deyir ki, hökumətə həmin təkliflərin İrad Hacıyev və ya digər bir şəxs tərəfindən verilməsi ilə bağlı məlumatsızdır. Onun sözlərinə görə, ümumilikdə bu sahə ilə bağlı verilən qərar doğru deyil: “Hesab edirəm ki, Nazirlər Kabineti vətəndaşlar tərəfindən şəxsi məqsədlər üçün gətirilən telefonlara bu cür gömrük rüsumlarının müəyyən etməsi düzgün deyil. Vətəndaş telefonu xaricdən öz qiymətinə alıb gətirməli və heç bir problemsiz, fantastik əlavə ödəmələr olmadan istifadə etməlidir. Nazirlər Kabinetinin qərarı hüquqi müstəvidə mübahisələndirilsə, hökumətin yanaşmasının düzgün olmadığı təsdiqlənəcək. Biz bunun ləğv edilməsi ilə bağlı cənab prezidentə müraciət etmişik”.

**Azərbaycanda iri şirkətlərdən alınan telefonların 2-3 ay sonra bloklanması halları da yaşanır. “Vətəndaş nə etməldir” sualına Osman Gündüzün cavabı belə oldu**:

“Telefon şirkətdən alınıbsa, qeydiyyat məsələsi də artıq şirkətin problemidir. Azərbaycana hüquqi şəxslər tərəfindən gətirilən telefonlar qeydiyyata alınmalı və sonra satışa çıxarılmalıdır. Vətəndaş telefonu alanda yoxlamalıdır, dəqiqləşdirməlidir ki, telefon qeydiyyatdan keçirilib, yoxsa keçirilməyib. Mağazanın borcudur ki, telefonu qeydiyyatdan keçirib vətəndaşa satmalıdır. Əks təqdirdə vətəndaşa deyilməlidir ki, telefon qeydiyyata salınmayıb. Bu, mütləq şəkildə vətəndaşa bildirilməlidir. Əgər telefonu vətəndaş xaricdə alıb ölkəyə gətiribsə, özü 1 ay ərzində qeydiyyata salmalıdır. Əks təqdirdə, telefon operatorlar tərəfindən bloklanır. Telefon Azərbaycan ərazisində işləməyəcək”.

Mərkəz direktorunun sözlərinə görə, telefon ölkəyə elektron ticarət yolu ilə gətirilibsə, hansı poçt şirkəti ilə çatdırılırsa, həmin poçt şirkəti vətəndaşı dəvət edib gömrüklə bağlı prosedurları həyata keçirir. Müəyyən araşdırma aparılır, aydınlaşdırılır ki, vətəndaş ölkəyə neçə telefon gətirib. Bu gün “Azərpoçt”da gömrüyün işçiləri fəaliyyət göstərirlər. Onlar orada böyük araşdırma aparırlar. Hələlik mexanizm tam şəkildə işlək deyil. Normal prosedurlar, vətəndaşların məlumatlandırılması yoxdur. Deyək ki, vətəndaş mal sifariş edir, o malın gəlib-gəlməməsi ilə bağlı məlumatı gərək ki, ora gedib dəqiqləşdirsin. Deyək ki, 1 ay ərzində vətəndaş 1000 dollar civarında elektron ticarət etsə, gömrük rəsmiləşdirilməsinə ehtiyac qalmır. Amma bəzən belə olur ki, gömrük əməkdaşı araşdırma aparır və hesab edir ki, telefon 950 dollar yox, 1015 dollardır. Bu ehtimalla vətəndaşın gətirdiyi telefona gömrük rüsumu tətbiq olunur. Ehtimali qiymətləndirmə vətəndaşın əlavə olaraq 200 manata yaxın rüsum ödəməsi ilə nəticələnir. Bu isə çox vaxt narazılıq yaradır. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Gömrük Komitəsi bu məsələlərə diqqət etməlidirlər".

**Osman Gündüz telefonların vətəndaşlar üçün baha, şirkətlər üçün ucuz qiymətə qeydiyyatdan keçirilməsi ilə bağlı fikirlərə də aydınlıq gətirdi:** “Bu bahalanma ilə bağlı qərar layihəsini hazırlayan məmurlar Azərbaycanda telefon satışından faydalanan qrupun lobbiçiliyini həyata keçiriblər. Hökumət ayrı yanaşmalar tətbiq edə bilərdi. Vətəndaşa misal üçün ildə 2 dəfə olmaqla ölkəyə rüsumsuz-filansız telefon gətirilməsinə icazə verə bilərdi. Hesab edirəm ki, qərar düzgün deyil. Elə siyasət yürüdülür ki, vətəndaş ölkə daxilində aldığı telefonun qiyməti ilə xaricdən alıb gətirdiyi eyni markalı, modelli telefonun qiyməti eynidir. Belə yanaşma bazarda qiymətləri artırır. Kiçik ticarətçilər əvvəllər gətirdikləri telefonları bazara çıxarıb ucuz satırdılar. 100 manata alınan telefonu böyük şirkət 150 manata satanda, kiçik şirkət 120-130 manata satırdı. İndi isə verilən qərar kiçik şirkətlərin bazardan sıxışdırılmasına, rəqabətin azalmasına, ümumiyyətlə aradan qalxmasına səbəb olacaq. Rəqabətsiz mühit kimlər üçünsə qiymətləri istədikləri kimi təyin etməyə imkan verəcək. Bazarda daha böyük oyunçular qalacaq, nisbətən kiçikləri sıradan çıxacaqlar”.

**Qeyd edək ki, intihar etdiyi iddia olunan İrad Hacıyev biznes şəbəkəsini 22 yaşı olanda, 2000-ci ildə Rəşad adlı şəriki ilə yaradıb. 2007-ci ilə qədər “İ&R Telecom” kimi fəaliyyətdə olan şirkət həmin ildən “İrşad Telecom” (İrşad İ.R. MMC) adı altında fəaliyyətini davam etdirməkdədir. Bildirilir ki, bir müddət əvvəl şirkətdə daha bir nəfər rəhbər şəxs peyda olub. İrad Hacıyevin həmin şəxslə münasibətləri o qədər də isti olmayıb. Belə xəbərlər də var ki, 2000-ci ildən bu günə qədər şirkətin 31 mağazaya qədər böyüməsində İrad Hacıyevin böyük əməyi olub. Şirkətin bundan sonrakı dövrdə digər bir holdinqin daxilində fəaliyyəti haqda da ona təkliflər edilibmiş. Lakin İrad Hacıyev bu təklifləri qətiyyətlə rədd etməsi iddiası da var.**

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəzifəli əməkdaşları həbs edildi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətləri birgə açıqlama yayıb.**



“Report”a daxil olan açıqlamada deyilir:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar çərçivəsində uğurla icra edilən işlərdən biri kimi son illər sosial müdafiə sisteminin əhatəliliyi və səmərəliliyi daha da artırılmış, sosial siyasətin başlıca istiqamətlərindən biri kimi əhalinin sosial müdafiəsi və təminatı sahələrində idarəetmənin təkmilləşdirilməsində, eləcə də ünvanlılıq və şəffaflığın təmin olunmasında əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə salan bilərək neqativ amillərə, o cümlədən əhatə etdiyi geniş əhali kateqoriyasına görə sosial-müdafiə sferasının mühüm komponentlərindən olan sosial müavinət və təqaüd sistemində baş verə biləcək sui-istifadə hallarına və vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş digər qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.

Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Sumqayıt şəhər şöbəsinin vəzifəli şəxslərinin yaşa görə müavinətlərin təyini üçün vətəndaşlardan rüşvət tələb etmələri ilə bağlı Baş Prokurorluğa daxil olmuş vətəndaş müraciəti əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz tədbirlər görülmüşdür.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri çərçivəsində Fondun Sumqayıt şəhər Şöbəsinin Sosial Yardım və Müavinətlər sektorunun baş məsləhətçisi vəzifəsində işləyən Elnur Quliyevin xidməti otağına baxış keçirilərkən ayrı-ayrı şəxslərin adlarına tərtib edilmiş sosial müavinət kartı və müavinət işləri aşkar edilərək götürülmüşdür.

Aparılmış birgə araşdırmalarla E.Quliyevin xidməti vəzifəsinin icrası ilə əlaqədar yaşa görə müavinətin həcminin daha artıq məbləğdə hesablanaraq verilməsinə görə müavinəti alacaq tərəflə əvvəlcədən aralarında olan razılaşma əsasında vətəndaşın bank kartını bankomata daxil edib kart hesabına köçürülmüş 1800 manat məbləğində birdəfəlik müavinət məbləğinin 600 manatını nağdlaşdırmasına, bununla da rüşvət kimi birbaşa yolla əldə etdiyi həmin pulun 300 manatını özünə götürməklə, qalan hissəsini qabaqcadan aralarında olan cinayətkar sövdələşməyə uyğun olaraq işlədiyi sektorun müdiri Vidadi Eyvazova verməsinə şübhələr üçün əsaslar olduğundan fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) maddəsi ilə cinayət işi başlanmışdır.

Cinayət işinin istintaqı gedişində toplanmış ilkin sübutlar əsasında Elnur Quliyev və Vidadi Eyvazova Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan olunaraq barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilmişdir.

**Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

YENİ MÜSAVAT
N 204 (7093) 29 sentyabr 2018

# Aşura günü qan verən 212 nəfərdə hepatit, 76 nəfərdə sifilis aşkarlandı

**Səhiyyə Nazirliyinin və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə "Aşura günü" qana ehtiyacı olan xəstələrə yardım məqsədi ilə keçirilən könüllü qanvermə aksiyalarında toplanılan qanların infeksiyalara görə müayinəsi aparılıb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, müayinələr B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının kliniki laboratoriyasında IFA (imunoferment) metodu ilə həyata keçirilir.

Qanlar 4 infeksiyaya görə (HIV; HBsAg; HCV; Sifilis) yoxlanılır. Müayinələrdə skrining keçirilir və infeksiya baxımından şübhəli olan qanlar barəsində müvafiq müəssisələrə məlumat verilir.

Müayinələr zamanı sifilislə şübhəli olan şəxslər barədə Dəri zöhrəvi Dispanserinə, Hepatitə şübhəli şəxslər barəsində Gigiyena və Epidemiologiya Mərkəzinə, QİÇS-lə bağlı Respublika QİÇS Mərkəzinə məlumat verilir və həmin şəxslər təkrar müayinələrə dəvət olunur.



İnfeksiya baxımından şübhəli qanlar müvafiq qaydalara uyğun olaraq zərərsizləşdirilir.

Aşura günü qan verən 5 min 539 nəfərin qanı müvafiq qaydada yoxlanılıb. 1 nəfərdə QİÇS, 96 nəfərdə Hepatit B, 116 nəfərdə Hepatit C, 76 nəfərdə sifilis aşkarlanıb.



## "Nar" yarım ilin hesabatını və yenilənmiş brendini təqdim etdi

nar
Gəlin birlikdə böyüyək

**"Nar" 2018-ci il üçün yarım ilin nəticələrini açıqlayıb. Nəticələrə əsasən, mobil operator bu dövr ərzində bir çox göstəriciləri əhəmiyyətli dərəcədə artırmağa nail olub.**

**Ötən ilin müvafiq dövrü ilə müqayisədə "Nar"-ın aktiv abunəçi bazası 6% artaraq, 2,1 milyon nəfərə çatıb. Abunəçi bazasının 56%-i paytaxt Bakının, 44%-i isə regionların payına düşür.**

**Şəbəkə infrastrukturunun genişləndirilməsinə xüsusi önəm verən "Nar" il ərzində ölkə ərazisində 380 ədəd 4G, 118 ədəd 3G stansiyası qurub. İlin sonuna qədər daha 387 ədəd 4G, 29 ədəd 3G baza stansiyası qurulacaq. Bununla da 2018-ci il üçün plamlaşdırılan 3G baza stansiyalarının sayı 2674, 4G baza stansiyalarının sayı isə 1706-ya çatdırılacaq. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq, 37 bölgə "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. "Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 250 min nəfərə çatıb.**

**"Nar" cari il üçün satış üzrə də yüksək nailiyyətlər əldə edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə satış üzrə 21%, səyyar satış komanadasının yaradılması ilə ucqar kənd və ərazilərdə 77% artıma nail olub. Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran mobil operator il ərzində 170-dən çox yeni korporativ şirkət cəlb edib. "Nar" korporativ müştəriləri üçün yeni sərfəli xidmətlər (smartfon, 4G data modem və portativ internet daşıyıcısı) təklif edir.**

**"Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke yarım ilin nəticələrini yüksək qiymətləndirib: "Biz bu il öz mövqeyimizi bazarda daha da gücləndirmişik. İrihəcmli investisiyalar yatırmaqla, şəbəkəmizi genişləndirdik, keyfiyyətimizi əhəmiyyətli dərəcədə artırdıq. Amma bununla yanaşı, yüksəkkeyfiyyətli xidmət və sərfəli qiymət strategiyası siyasətinə sadiq qalırıq.**

**Tədbir zamanı "Nar"-ın yenilənmiş brendi, şüarı və reklam filmi təqdim olundu. Yenilənmiş brendimiz müştərilərin ehtiyaclarını qarşılamaq, onların etibarlı tərəfdaşı olmaq məqsədi daşıyır. "Nar"-ın yeni - "Çünki daha çoxuna layiqsən!" şüarı məhz bu xüsusiyyətləri özündə birləşdirir və abunəçilərə yönəlik strategiyanı özündə əks etdirir.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib.**



## Həbsdən çıxdı, bacısının ərini baltalayıb öldürdü

**Lənkəranda törədilmiş dəhşətli qətllə bağlı bəzi məqamlar aydınlaşıb. Publika.az-ın əldə etdiyi məlumata görə, Vilvan kəndində bacısının həyat yoldaşı, 1960-cı il təvəllüdlü Sakit Yusubovu amansızlıqla öldürən 48 yaşlı Mahir Əzimov yenicə həbsxanadan çıxıbmış.**

Bildirilir ki, M.Əzimov qeyri-sağlam həyat tərzi sürdüyündən atası evi-həyəti qızına və kürəkəninə bağışlayıbmış. Bir müddət əvvəl həbsxanadan çıxan Mahir isə həmin həyətdən torpaq sahəsi istəyib və bacısının həyat yoldaşı ilə münaqişə yaradıb. Həm də spirtli içki aludəçisi olan M.Əzimov münaqişə zəminində balta ilə yeznəsinə hücum edib və onun başına zərbələr endirib. Ailə üzvləri müdaxilə etmək istəsə də Mahir qışqıraraq heç kimin yaxın gəlməməsini deyib.

Əks təqdirdə onları da baltalayacağını deyib. Hətta o, Sakiti öldürükdən sonra baltanı əlindən qoymayıb və meyitin yanında uzanaraq dayanıb. Qohum-qonşu, kənd sakinləri cəmləşsə də o, qan içində qalmış Sakitin yanından tərpənməyib və ailə üzvlərinin meyiti götürməsinə imkan verməyib. Nəhayət, hadisə yerinə gələn polislər Mahir Əzimovu yaxalayaraq polis şöbəsinə aparıb.

Qeyd edək ki, hadisəni törədən şəxs əvvəllər bir neçə dəfə məhkum edilib. Qətlə yetirilən S.Yusubov isə müsbət xarakterli insan kimi tanınıb.

Faktla bağlı Lənkəran rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.



## Azərbaycanlı oğru qadın Avstriyada türməni yandırdı

**43 yaşlı Azərbaycan vətəndaşı olan qadın Avstriyanın Zalsburq şəhərindəki həbsxanada yanğın törədib. Bu türmədə qeyri-qanuni miqrantlar yerləşdirilir. Virtualaz.org "Kron" nəşrinə istinadən xəbər verir ki, hadisə nəticəsində bir neçə nəfər xəsarət alıb.**

Mənbəyə görə, Hernalder saxlama mərkəzində hadisə dünən saat 17:30-da baş verib. Qadın öz kamerasında döşəyi yandırıb və güclü tüstülənmə qeydə alınıb. Yanğının söndürülməsinə 22 yanğınsöndürən cəlb olunub və onlar tez bir zamanda alovun öhdəsindən gəliblər.

Tüstüdən güclü zəhərlənmə ilə azərbaycanlı qadın kamera yoldaşları ilə birlikdə, o cümlədən üç polis əməkdaşı yerli xəstəxanalardan birinə çatdırılıblar.

"Hadisənin səbəblərini bilmirik. Deportasiya yanğının törədilməsinin səbəbi ola bilməzdi. Qadın inzibati hüquq pozuntusuna görə müəssisədə saxlanılırdı", - yerli polisin mətbuat katibi Nina Laubiçler jurnalistlərə deyib.

## Bakıda gənc oğlanı girov götürüb ailəsindən pul tələb etdilər

**Baki sakini oğlunun girov götürülməsi ilə bağlı polisə müraciət edib. Publika.az-ın əldə etdiyi məlumata görə, Nizami rayon Polis İdarəsinə müraciət edən Gülşən Qəribova Naxçıvanski küçəsində yaşadığını və oğlu, 1989-cu il təvəllüdlü Anarın sentyabrın 22-dən itkin düşdüyünü bildirib.**

Qadın şikayət ərizəsində qeyd edib ki, ayın 22-də oğlu Habil və İxtiyar adlı tanışları ilə Gürcüstana getmək adı ilə evdən çıxıb. Lakin o, bir müddət Anardan xəbər ala bilməyib. Nəhayət, sentyabrın 27-də Habil adlı şəxs Gülşən Qəribovaya zəng edərək oğlunu girov saxladıqlarını bildirib. Həmin şəxs Anarın azad edilməsi üçün 5 min manat tələb edib.

Müraciət əsasında polis tərəfindən araşdırmalara başlanılıb.

YENİ MÜSAVAT
N 204 (7093) 29 sentyabr 2018

# İslam müqəddəslərinin rəsmlərinin yaranmasının tarixçəsi

## İslamın ilk illərində qadağan edilən rəsm sənəti sonradan müsəlman aləmində tədricən yayılmağa başladı

**Hazırda Azərbaycan da daxil olmaqla bir sıra müsəlman ölkələrində İslam müqəddəslərinin, o cümlədən Məhəmməd Peyğəmbərin (s.ə.s), eləcə də imamların (ə) rəsmləri mövcuddur. Bu rəsmlərin əksəriyyətinin müəllifi və ya kim tərəfindən harada çəkilməsi barədə geniş məlumat yoxdur.**



Eyni zamanda məlum olduğu kimi, İslamın ilk illərində rəsm və heykəltəraşlıq kimi sənət əsərləri qadağan edilib. Bunu da daha çox bütpərəstlik adətlərinin geri dönməsi təhlükəsi ilə izah ediblər. Zahirən isə insanın əksinin çəkilməsi, heykəlinin düzəldilməsi sonradan onun pərəstiş edilməsi, ya da başqa adla bütə çevrilməsi təhlükəsi olduğu üçün qadağan edilib.

Lakin Orta Əsrlərdə bu qadağa bir qədər yumşalıb. Ancaq yumşalma daha çox Şimali Afrika, həmçinin İran və Anadolu coğrafiyasında qeydə alınıb. Hansı ki, bu bölgələrdə İslamiyyətdən əvvəl bütpərəstlik olmayıb və necə deyərlər, zehinlərdə bütlərin təhlükəsi, onların yaratdığı sirk ənənəsi zəif olub. Maraqlıdır ki, ilk dövrlərdə miniatürlərdə Quranda təsvir olunan müqəddəslərin, daha sonra isə nadir hallarda da olsa Peyğəmbərin və imamların rəsmləri yaradılıb.

"Mələk Cəbrailın Məhəmməd peyğəmbərə (s) hədiyyə etdiyi şəhər" adlı təsvir maraqlı miniatür, həmçinin İbrahimin oğlu İsmayılı qurban kəsməsi səhnəsi, Peyğəmbər (s) və İmam Əliylə (ə), nəvəsi Həzrət Hüseynlə (ə) və mələk Cəbrailin əks olunduğu miniatür var. Eləcə də İran və Orta Asiya coğrafiyasında imamların, o cümlədən Həzrət Əli (ə) və Həzrət Hüseynin (ə) rəsmləri geniş yayılıb və bu gün də yayılmaqdadır.

İndi isə aktual bir sual var. daha çox bu sual şəkillərə qarşı olanlar tərəfindən verilir. Əgər İslamın ilk illərində rəsm çəkmək qadağan edilibsə, o zaman Məhəmməd Peyğəmbər (s.ə.s) və imamların (ə) rəsmlərini kim və necə yarada bilərdi? Özü də bu rəsmlər bir neçə yüz ildən sonra necə çəkilə bilərdi?

Bu sualın yeganə cavabı "hilyə" adlı müsəlman elmində gizlənir. Hilyə lüğəti mənası bəzək, zinət vermək, üz və ruh gözəlliyidir. Termin olaraq "Hilyəyi şərif" Məhəmməd Peyğəmbərin (s.ə.s) rəsminin yazı ilə çəkilməsi. Bu yazılarda Peyğəmbərin (s.ə.s) üz cizgiləri, sifət quruluşu yazılarla incəliklə təsvir olunub. Əsasən Peyğəmbər (s.ə.s) barəsindəki hədis, rəvayətlərdə onun bədən və üz cizgilərinin təsvirinə əsaslanaraq müəlliflər yazı ilə müqəddəslərin təsvirlərini hazırlayıblar. Bu hətta bir dönəm ilahiyyat elmləri sırasına daxil olub.

Daha sonra isə orta əsrlərdə müsəlman dünyasının fərqli mədəniyyətlərlə qovuşması, rəsm sənətinin yayıldığı dövrdə miniatür sənətində "hilyələrə" əsaslanaraq Peyğəmbər (s.ə.s) və imamların (ə) rəsmləri çəkilməyə başlayıb.

**Ancaq müsəlman alimləri bu əsərlərin heç birini bənzər və ya oxşar olduğunu qəbul etmir. Bu səbəbdən də bu cür rəsmlər mötəbər deyil, sadəcə rəssamların "Hilyə" əsərlərinə və yazılara istinad edərək hazırladığı təxəyyül məhsulu hesab olunur.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Netanyahu bu dəfə amerikalıları inandıra bilmədi

## İsrail baş nazirinin İran məxfi nüvə reaktoru olması ilə bağlı iddiaları əks reaksiya doğurub

**İsrailin baş naziri Benyamin Netanyahu növbəti dəfə BMT tribunasından İranı ittiham edib. Baş nazir son illər formalaşmış "ənənəsinə" sadiq qalaraq ali tribunadan İranın gizli nüvə fəaliyyətlərinə dair fotoları nümayiş etdirib və bəyan edib ki, İsrail İrana qarşı Suriya, İraq və başqa "harda olursa olsun, hərəkət edəcək".**



Benyamin Netanyahu

Benyamin Netanyahu bildirib ki, İranın paytaxtı Tehranda "gizli atom anbarı" saxlayır. Eyni zamanda o, BMT nüvə müfəttişlərini yoxlamalar aparmağa çağırıb. İranın anbarda tonlarla nüvə avadanlıqlarını saxladığını iddia edən baş nazir bunun 2015-ci il sazişinə zidd olduğunu bəyan edib, çünki Netanyahu bildirir ki, bu avadanlıqlar nüvə silahlarının hazırlanmasında istifadə edilir. Baş nazir İranın gizli nüvə obyektinin adını və yerləşdiyi küçənin adını. Həmçinin fotolarını BMT tribunasından göstərdi. Netanyahu bildirib ki, gizli nüvə anbarında 300 nüvə məhsulları saxlanılır. Eyni zamanda o, 15 kiloqram zənginləşdirilmiş uranın Tehranın müftəlif yerlərində gizlədildiyini iddia edib.

Eyni zamanda Livan Hizbullahını hədəfə alan Netanyahu deyib ki, İran Hizbullahın əlindəki raketlərin hədəfi daha dəqiq vurması üçün onların daha da təkmilləşdirilməsini həyata keçirib. Bununla bağlı artıq Livanda hərbi bazanın qurulduğunu və Hizbullah raketlərinin inkişaf etdirildiyini bildirib. O deyib ki, İsrail bütün bunları, gizlədilən raketlərin yerlərini bilir və buna qarşı addımları atacaq.

Netanyahu Trampın İrana qarşı embarqolarını təqdir edərək, bu qərarların Tehranın iqtisadi gücünü zəiflətdiyini bildirib. O deyib ki, İran xalqı bu embarqolardan sonra cəsarətlənərək meydanlara çıxıb.

Rəsmi Tehran isə Netanyahunun iddiasını dərhal təkzib edib. Xarici işlər naziri Cavad Zərif Netanyahunun Tehran yaxınlığında gizli nüvə mərkəzinin olması ilə bağlı fikirlərini "yalançılıq" adlandırıb. Eyni zamanda Zərif əlavə edib ki, "heç bir tamaşa *(Netanyahunun BMT-dəki çıxışına işarə edib - K.R.)* İsrailin bölgəmizdə gizli və açıqlanmamış nüvə silahı proqramına sahib olan tək yeganə ölkə olduğu həqiqətini gizlədə bilməz. İsrailin qanunsuz nüvə silahı proqramını etiraf edib beynəlxalq müfəttişlərin təftişi üçün açmasının zamanı gəlib".

Zərif Netanyahunu "yalan danışmaqdan əl çəkməyən bir yalançı" adlandırıb. Və eyni zamanda İsrail baş nazirinin iddialarının heç bir əsasının olmadığını bildirib. **Sitat**: "Dünya belə bir yalan, mənasız və əsassız bir çıxışa, saxta şouya sadəcə qəhqəhə çəkər".

Qeyd edək ki, 2015-ci ildə İran və "altılıq" ölkələri arasında nüvə proqramı ilə bağlı 10 illik anlaşma imzalanıb. Ancaq bu ilin mayında ABŞ prezidenti Donald Tramp birtərəfli qaydada o anlaşmadan çıxıb və İrana qarşı embarqoları bərpa edib. Vaşinqton eyni zamanda Avropa Birliyi və İranla əməkdaşlıq edən digər ölkələrə də xəbərdarlıq edərək Tehranla əlaqələri dayandırmağa çağırır. Tramp nüvə anlaşmasının İranın xeyrinə olduğu, Tehranın Yaxın Şərqdə silahlı müqavimət qruplarına dəstək verdiyi, həmçinin raket proqramını inkişaf etdirdiyini bildirir. O Tehranla yeni və daha sərt anlaşmanın imzalanması, raket proqramının və Yaxın Şərqdəki fəaliyyətlərini dayandırmasını tələb edir.

İsrail isə Trampın bu addımlarını dəstəkləyir. Təl-Əviv ilk gündən İranla nüvə anlaşmasına qarşı olub. Maraqlıdır ki, Netanyahunun BMT tribunasından İranla bağlı iddialarını müttəfiqi Vaşinqtonda təqsdiqləməyiblər. Vaşinqtondan dövlət rəsmilərindən biri "Röyters" Agentliyinə bildirib ki, Vaşinqtonun Netanyahunun adını çəkdiyi nüvə mərkəzindən xəbəri var. Ancaq bu mərkəzdə İsrail baş nazirinin iddia etdiyi kimi, nüvə zənginləşdirilməsi işi aparılmır, sadəcə İranın nüvə proqramı ilə bağlı qeydlər və arxiv saxlanılır.

Bir başqa ABŞ kəşfiyyatı təmsilçisi Agentliyə bildirib ki, Netanyahunun BMT tribunasındakı çıxışı "çaşdırıcı" olub. Kəşfiyyat rəsmisi qeyd edib ki, ABŞ kəşfiyyatının sözügedən nüvə mərkəzi barədə məlumatı uzun müddətdir ki, var. O sözügedən mərkəzdə sadəcə sənədlərin olduğunu, həmin bazada İranın nüvə anlaşmasını poza biləcək hər hansı bir cihazın mövcud olmadığını deyib.

**İsrailin İrana qarşı münasibəti bəllidir. Təl-Əviv hazırkı İran hakimiyyətinin Hizbullaha, həmçinin Fələstində Həmas, İslami-Cihad kimi silahlı müqavimət qruplarına dəstək verməsindən narahatdır. Netanyahu isə İsrailin mövcud olmuş ən radikal liderlərindən biridir. Ancaq son hadisələr göstərir ki, Trampın iqtidarında belə amerikalılar İsrailin qatı aqressiv ritorikasını dəstəkləmirlər. Məsələnin digər tərəfi isə İsrailin İranın üstünə getməsi həm də onun özündə olan nüvə silahını gündəmə gətirir. İsrail dünyada nüvə silahına sahib az saylı dövlətlərdən biridir. Ancaq İsraildəki nüvə fəaliyyətləri şəffaf beynəlxalq təftişlərə açıq deyil. İranın xarici işlər naziri də məhz buna işarə edərək incə şəkildə İsrailin zəif yerinə toxunur.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 204 (7093) 29 sentyabr 2018*




## Ölümcül xəstə dəfn üçün pul yığır

**Amerikanın Pensilvaniya ştatındakı Braunstaun şəhərində ölümcül xəstəlikdən dünyasını dəyişəcək veteran dəfn xərcləri üçün bütün əşyalarını satışa çıxarıb. Bu barədə WJAC xəbər verib. Villi Deyvis ümid edir ki, öləndən sonra onu Virciniya ştatında, valideynlərinin məzarı yanında basdıracaqlar. Onun bu arzusunun həyata keçməsi üçün 15 min dollar lazımdır. Bu qədər pul Deyvisdə yoxdur, ona görə də əşyalarını satmağa qərar verib. Hər həftənin bazar günü yaşlı kişi əşyalarını evinin həyətində kimlərinsə onu alacağı ümidi ilə satışa çıxarır.**

Alıcılardan birinin adı Deyvis Danklberqerdir. O, Villinin öz dəfn mərasimi üçün pul yığdığını eşidəndə şoka girmiş və bu barədə dostuna xəbər vermişdi. “Adam onun hekayəsini eşidəndə damarında qanı donur” - bunu Danklberqerin dostu deyib. Onlar məhz bu hekayəni eşidəndən sonra Villliyə yardım etmək üçün düşünməyə başlayıblar.

Onlar xəstə kişiyə yardım üçün saytlardan birində pulyığma aksiyasına başlayıblar. Bir aya yaxın müddətdə 800 nəfər bu adama kömək üçün pul verib ki, bu da ümumilikdə 28 min dollar olub. Böyük əksəriyyət ona 5-10 dollar məbləğində pul göndərib. Bir neçə nəfər isə 100 dollar göndərib. Amma bu siyahıda 1000 dollar məbləğində də yardım edən olub. Danklberqer və onun dostu hesab edir ki, sonda 40 min dollar vəsait yığılacaq.

## Aylarla anasının meyiti ilə yaşadı

**Amerikanın Cənubi Karolina ştatının sakini bir neçə ay anasının meyiti ilə birgə yaşayıb. Bu barədə lenta.ru saytı xəbər verib. 69 yaşlı Donna Syu Hacens iddia edir ki, 93 yaşlı anasını məhz sonuncunun ölüm mərhələlərini izləmək üçün basdırmayıb. Qohumları onlara qonaq gələndə o, müxtəlif bəhanələrlə onları içəri buraxmayıb. Amma qonşular iddia edir ki, xoş olmayan qoxu hiss etsələr də, bunun kanalizasiyadan gəldiyini düşünüblər.**



Yalan Hacensin dəfn bürosuna müraciəti zamanı üzə çıxıb. O, anasının dəfni ilə bağlı məsələnin detallarını həll etmək istəsə də, meyitin harada olduğunu izah edə bilməyib. Dəfn bürosu tərəfindən çağırılan polislər meyiti Hacensin evində tapıblar. Tibbi ekspertiza müəyyən edib ki, qadın bir neçə ay öncə dünyasını dəyişib. Hacens həbs edilib, ona ölümü gizlətməklə bağlı cinayət işi qaldırılıb.

Bu ilin aprelində xəbər verildi ki, İtaliyanın şimalında potensial alıcı almaq istədiyi evdə keçmiş sahibinin meyitini tapıb. Sonuncu 2017-ci ilin yayında ölübmüş.

## Bu şəhər camaatı 2 ilə 100 min kilo arıqlamalıdır



**İspaniyanın Naron şəhər hakimiyyəti kütləvi arıqlama kampaniyası elan edib. 2020-ci ilə qədər onun sakinləri ümumi olaraq 100 min kiloqram itirməlidir. Sözügedən şəhərdə 40 minə yaxın insan yaşayır. Onlardan 9 minə yaxını artıq çəkidən əziyyət çəkir. Layihəyə dörd min nəfər cəlb olunub - şəhər sakinlərinin hər 10 nəfərdən biri.**

Layihənin dəstəkçilərindən biri, 63 yaşlı həkim Karlos Pineyro şəhər parkında, açıq havada gimnastika saatı keçirir. 65 yaşlı yük maşını sürücüsü Konrado Vilela Viyamar da müntəzəm olaraq məşğələlərə gəlir. «İspaniyada belə bir atalar sözü var ki, donuzu tam şəkildə yemək olar - başından quyruğuna qədər. İlk növbədə mən donuz ətindən, qırmızı ətdən, kalorili yeməklərdən imtina etdim".

Proqram məktəblərdə həyata keçirilir. Tənəffüs zamanı müəllimlər şagirdlərlə birgə gəzinti edirlər. Dərs günü boyunca məktəblilərə idmanla məşğul olmaq üçün bir saat vaxt verilir. Səhər saatlarından məktəblilərə pulsuz meyvə paylayırlar. Bununla paralel, uşaqlarla artıq çəki problemi birbaşa müzakirə olunmur. Çünki kök şagirdlər bu zaman kompleks keçirib, psixoloji sarsıntıya düşə bilərlər. Pineyro ümid edir ki, yeni nəsil daha sağlam böyüyəcək, belə ki, “yaşlı nəsil heç də hər zaman məsləhətlərə qulaq asmır”. İspan kardioloqlarının araşdırmasına görə, Qaliyada daha çox şişmanlıqdan əziyyət çəkən ispanlar yaşayır. Araşdırmalar bunun ispanların düzgün qidalanmamasının nəticəsi olduğunu üzə çıxarıb.




**QOÇ** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**BUĞA** - İxtiyarınızda olan bu təqvimdə müəyyən gərginliklərlə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**ƏKİZLƏR** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planların bir çoxunu reallaşdıracaqsınız. Bunun üçün ilk növbədə ədalət prinsiplərinə söykənməlisiniz. Nahardan sonra səfərə çıxmağa dəyər.

**XƏRÇƏNG** - Astroloji göstəricilər səhhətinizdə problemlərin olacağını göstərir. Hər addımda ehtiyatlı olun. Əlalxüsus da qida və yuxu rejiminə ciddi riayət edin. Borc almağa girişməyin.

**ŞİR** - Bu gün hansısa fəaliyyətinizin səmərə verəcəyi inandırıcı görünmür. Lakin buna görə ruhdan düşməyinizə əsas yoxdur. Əksinə, sövdələşmələrə başlamaq və gəlir əldə etmək üçün uğurludur.

**QIZ** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Qonaq getmək olar.

**TƏRƏZİ** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**ƏQRƏB** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**OXATAN** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**OĞLAQ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**SUTÖKƏN** - Planetlərin bürcünüzdəki neqativ quruluşu sağlıq durumunuzda mənfi fəsadlar əmələ gətirə bilər. Buna baxmayaraq, fəaliyyətdə uğurlarınız gözlənilir. Oturaq işləri məhdudlaşdırın.

**BALIQLAR** - Bəzi bürclərdə olduğu kimi sizin də səhhətlə bağlı problemləriniz mümkündür. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra sürpriz gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Köpəkbalığı qayığın motorunu dişlədi



**Köpəkbalığı Baham adalarında üzən qayığa hücum edib. Bu barədə "Daily Mail" qəzeti məlumat yayıb. Ceyms Munro qayıqla balıqçılıq edirmiş. O, qayıqla balıq tutduğu zaman qəfil olaraq köpəkbalığı qayığa hücum edib. 120 santimetr uzunluğundakı köpəkbalığı dişi ilə motoru zədələyib. “Mən dəhşətə düşmüşdüm. Beləsini heç gözləmirdim. Bu hücumdan sonra mən sürətlə meşəyə tərəf irəlilədim, motor yüngülvari zədə gördü, amma mən sağ qaldım”.**

Limon köpəkbalıqları Atlantik okeanın qərbində və Sakit okeanın cənub-şərqində üzürlər. Uzunluğu 340 santimetr olan köpəkbalığı növlərinə də rast gəlmək mümkündür. Onlar insan həyatı üçün xüsusilə təhlükəlidir.

2017-ci ildə xəbər verildi ki, Avstraliyada limon köpəkbalığı ona ip atmağa cəhd edən bir balıqçını dişləyib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100